

# Azərbaycan-Türkiyə qardaşlığı əbədidir, sarsılmazdır!

4



# Səs

№ 168 (6609) 16 sentyabr 2022-ci il. Qiyməti 60 qəpik

# Azərbaycan beynəlxalq birlik üçün önəmli tərəfdaşdır!



2

# Ermənistanın Qərb kartı:

## ölkə daha ağır faciələrə sürüklənir!

Azərbaycanın isə Ermənistana təsir mexanizmləri artır və hətta yedək elementləri də mövcuddur

Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-ın Dövlət Departamentinin təmsilçisi Filip Rikeri qəbul edib. O da bəllidir ki, görüşdə Ermənistan rəsmiləri ilə kontaktlarda olan XİN rəhbəri və Prezidentin köməkçisi də iştirak ediblər. Bütün bunlar öz yerində, lakin sözügedən məqamda belə bir sual yaranır: axı ABŞ rəsmiləri, ümumiyyətlə isə Qərbin müəyyən siyasi dairələri...



14

Uşaqlarımızın məktəb ləvazimatlarını düzmü seçdik?



15

“Qarabağı satanlar Qarabağı geri qaytaranları ittiham edə bilməz”



10

19 yaşlı tələbə zahiri görünüşünə görə intihar edib



16



Ana südü, yoxsa əlavə qida?

13

Dövrümüzün xainləri: zaman öz cavabını verəcək!




8

“Qarabağ”dan möhtəşəm qələbə!



Azərbaycan hərbçiləri yaralı erməni əsgərə belə yardım etdi



# Azərbaycan beynəlxalq birlik üçün önəmli tərəfdaşdır!

## Prezident İlham Əliyev Özbəkistana səfər edib, Səmərqənddə bir sıra mühüm görüşlər keçirib



**Dünən Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olub.**

Prezident Şavkat Mirziyoyev dövlətimizin başçısını Özbəkistanda salamlamaqdan məmnunluğunu bildirdi, Azərbaycan Prezidenti İlham Əliyevin iyunda Özbəkistana dövlət səfərini xatırladı. Özbəkistan Prezidenti dövlət səfəri zamanı müəyyənləşdirilən istiqamətlər üzrə işlərin uğurla davam etdirildiyini, hökumətlərarası komissiyanın fəaliyyətinin təşkil olunduğunu, verilmiş tapşırıqların yerinə yetirildiyini vurğuladı. Prezident Şavkat Mirziyoyev yüksək səviyyəli qarşılıqlı səfərlərin də davam etdirildiyini, Azərbaycan Milli Məclisi sədrinin bu yaxınlarda Özbəkistana səfərinin, parlamentlərimiz arasında əməkdaşlığın məmnunluq doğurduğunu diqqətə çatdırdı.

Qarşıda duran əsas məsələnin əlaqələrimizin bütün sahələrdə daha da inkişaf etdirilməsi olduğunu vurğulayan Özbəkistan Prezidenti Azərbaycanın və Özbəkistanın mədəniyyət xadimlərinin qarşılıqlı təltif olunmasını müsbət hal kimi dəyərləndirdi. Prezident Şavkat Mirziyoyev dövlətimizin başçısını Özbəkistanda ən əziz dostu və qardaşı kimi salamladığını bir daha qeyd etdi.





Prezident İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının Sammitində ilk dəfə iştirak üçün dəvətə görə Prezident Şavkat Mirziyoyevə təşəkkürünü bildirdi. Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatında dialoq tərəfdaşı statusuna sahib olduğunu vurğulayan dövlətimizin başçısı ölkəmizin ilk dəfə məhz Özbəkistanın sədrliyi dövründə fəxri qonaq qismində Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısına dəvət olunduğunu diqqətə çatdırdı və uğurlu sədrlik münasibətilə Prezident Şavkat Mirziyoyevi təbrik etdi.

Dövlətimizin başçısı Özbəkistanın Şanxay Əməkdaşlıq Təşkilatına sədrliyi dövründə yaxşı nəticələrin əldə olunduğunu bildirdi. Səmərqənddə aparılan yenidənqurma işlərini, şəhərin abadlaşdırılmasını, gözəlləşdirilməsini xoş təəssüratla qarşıladığını vurğulayan Azərbaycan Prezidenti qardaş Özbəkistanın Prezident Şavkat Mirziyoyevin rəhbərliyi ilə inkişafının xalqımızda böyük sevinc hissi doğurduğunu qeyd etdi. Dövlətimizin başçısı bildirdi ki, biz qardaş, dost ölkə olaraq yenidən birləşdik və əlaqələrimizdə yeni məzmun yaradırıq. Özbəkistana dövlət səfərini xoş təəssüratlarla xatırladığını vurğulayan Prezident İlham Əliyev Prezident Şavkat Mirziyoyevi Azərbaycana səfərə dəvət edib. Prezident Şavkat Mirziyoyev dəvəti məmnunluqla qəbul edib.

Azərbaycan Prezidenti İlham Əliyev kənd təsərrüfatı, pambıqçılıq, trikotaj, nəqliyyat, sənaye, ticarət və digər sahələrdə əlaqələrimizin inkişafında konkret nəticələrin olduğunu bildirib. Bütövlükdə iqtisadi-ticari əlaqələrimizin sürətlə inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı da mədəniyyət xadimlərimizin qarşılıqlı təltif edilməsini müsbət hal kimi dəyərləndirib.

Sentyabrın 15-də Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub. Görüşdə Prezident Rəcəb Tayyib Ərdoğan Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində törətdiyi genişmiqyaslı təxribatların qarşısının alınması zamanı hərbi qulluqçularımızın şəhid olması ilə bağlı Prezident İlham Əliyevə, Azərbaycan xalqına və həlak olanların yaxınlarına başsağlığı verdi. Dövlətimizin başçısı başsağlığına görə Prezident Rəcəb Tayyib Ərdoğana minnətdarlığını bildirdi.

Görüşdə Azərbaycanın və Türkiyənin daim bir-birinin yanında olduqları bir daha qeyd edildi. Ölkələrimizin strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Dövlət başçıları energetika, nəqliyyat, logistika və digər sahələrdə əməkdaşlığa dair birgə layihələri müzakirə etdilər və gələcək təmaslarla bağlı fikir mübadiləsi apardılar.

Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü olub. Görüşdə Sədr Si Cinpin Azərbaycan ilə Çin arasında diplomatik münasibətlərin qurulmasının, həmçinin Yeni Azərbaycan Partiyasının yaradılmasının otuz illiyi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

*Ardı Səh. 3*

# Azərbaycan beynəlxalq birlik üçün önəmli tərəfdaşdır!

## Prezident İlham Əliyev Özbəkistana səfər edib, Səmərqənddə bir sıra mühüm görüşlər keçirib







Əvvəli Səh. 2

Dövlət başçısı bildirdi ki, Azərbaycan ilə Çin arasında əlaqələr strateji tərəfdaşlıq xarakteri daşıyır və yüksək səviyyədə inkişaf edir. "Sizin Azərbaycan ilə Çin arasında əlaqələrin inkişafına mühüm əhəmiyyət verməyinizi çox yüksək qiymətləndiririk. Biz əlaqələrimizin strateji səviyyədə hərtərəfli inkişafını dəstəkləyirik", - deyə Si Cinpin bildirdi.

Prezident İlham Əliyev Çinin lideri Si Cinpin ilə görüşdən çox məmnun olduğunu və əvvəlki görüşlərini məmnuniyyətlə xatırladığını, xüsusilə 2019-cu ildə "Bir kəmər, bir yol" Forumunda iştirak etmək üçün Çin Xalq Respublikasına səfərini yüksək qiymətləndirdiyini vurğuladı. Dövlətimizin başçısı da Azərbaycan ilə Çin arasındakı münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını, ölkələrimizin bir çox sahələrdə uğurla əməkdaşlıq etdiyini diqqətə çatdırdı.

Yeni Azərbaycan Partiyasının yaranmasının otuz illiyi münasibətilə təbriklərə görə Sədr Si Cinpinə təşəkkürünü bildirən Prezident İlham Əliyev iki ölkənin hakim partiyaları arasında çox yaxşı əlaqələrin olduğunu qeyd etdi. Azərbaycan-Çin diplomatik əlaqələrinin otuz illiyinin uğurlu nəticələrlə qeyd olunduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında bütün sahələrdə çox faydalı və səmərəli əməkdaşlığın qurulduğunu dedi.

Prezident İlham Əliyev COVID-19 pandemiyasına qarşı mübarizədə Çinin Azərbaycana göstərdiyi dəstəyi yüksək qiymətləndirdiyini, Çindən alınmış peyvəndlər sayəsində Azərbaycanın vaksinasiya prosesinə başlayan ilk ölkələrdən olmasını həmrəyliyin nümunəsi kimi dəyərləndirdi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan işğaldan azad etdiyi ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirir. Çinin bir çox şirkətləri də bu işlərdə iştirak üçün müraciət edib. Azərbaycan Çin şirkətlərinin bu layihələrə daha fəal şəkildə cəlb olunmasını dəstəkləyir.

Çin Xalq Respublikasının Sədri Si Cinpin ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini bildirdi və Azərbaycanın da Çinin ərazi bütövlüyünə və suverenliyinə göstərdiyi dəstəyi yüksək qiymətləndirdiyini qeyd etdi. Sədr Si Cinpin bildirdi ki, dövlətlərin işlərinə qarışmamaq vacib prinsipdir.

Prezident İlham Əliyev Azərbaycanın Çinin ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini, Çinin də ölkəmizin ərazi bütövlüyünə birmənalı dəstəyini həmişə yüksək qiymətləndirdiyini vurğuladı, buna görə Si Cinpinə təşəkkürünü ifadə etdi. Azərbaycan Prezidenti xüsusilə qeyd etdi ki, dövlətlərin daxili işlərinə qarışmamaq Azərbaycan üçün də əsas prinsiplərdən biridir. Dövlətimizin başçısı Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinin aliliyinin təmin olunmasını daim dəstəklədiyini diqqətə çatdırdı, ölkəmizin 2019-cu ildən Qoşulmama Hərəkatının sədri olaraq bu istiqamətdə fəaliyyətini davam etdirdiyini vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, ərazi bütövlüyü beynəlxalq hüququn fundamental prinsipidir və buna hamılıqla riayət etmək lazımdır.

Dövlətimizin başçısı humanitar sahədə əməkdaşlığın tərkib hissəsi kimi şəhərlərarası əlaqələrin, tələbə mübadiləsinin artırılmasının, həmçinin turizm sahəsində əməkdaşlığın vacibliyini qeyd etdi. Azərbaycan Prezidenti pandemiya tam başa çatdıqdan sonra ölkələrimiz arasında turist mübadiləsinin COVID-19-dan əvvəlki səviyyəsinin bərpa olunacağına əminliyini vurğuladı. Dövlətimizin başçısı Çinin Azərbaycanın dostu və strateji tərəfdaşı olduğunu bir daha ifadə etdi. Sonda dövlət başçıları əlaqələrimizin dərinləşdirilməsi və daha da inkişafı üçün birgə səylərin bundan sonra da davam etdiriləcəyini bildirdilər.

Prezident İlham Əliyev Səmərqənddə Özbəkistan Respublikasının birinci Prezidenti İslam Kərimovun məqbərəsini ziyarət edib. Hündürlüyü 8 metrə qədər olan məqbərə Özbəkistanın birinci Prezidenti İslam Kərimovun məzarı üzərində ucaldılıb. Məqbərənin divarları qiymətli daşlar və zərlə bəzədilib. Girişdə mərmər lövhə üzərində özbək və ingilis dillərində "Bu müqəddəs yer Özbəkistan Respublikasının birinci Prezidenti, böyük dövlət və siyasət xadimi, özbək xalqının əziz və sevimli oğlu İslam Abduqanieviç Kərimovun əbədi məskənidir" sözləri həkk olunub. Məqbərənin layihələndirilməsi və inşası zamanı onun dizaynının UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş qədim Səmərqənddəki Xəzrət-Xızr məscidi ilə uyğunluğuna diqqət yetirilib.



Prezident İlham Əliyev Özbəkistan Respublikasının birinci Prezidenti İslam Kərimovun məzarı önünə gül dəstəsi qoyub. Sonra "Qurani-Kərim"dən ayələr oxunub.





# Azərbaycan-Türkiyə qardaşlığı əbədidir, sarsılmazdır!

## YAP nümayəndələri "Türk şəhidliyi" abidəsini ziyarət ediblər

**Sentyabrın 15-də Bakının erməni-bolşevik işğalından azad edilməsinin 104-cü ildönümü münasibətilə Yeni Azərbaycan Partiyasının nümayəndələri Bakıdakı "Türk şəhidliyi" abidəsini ziyarət ediblər. SİA-nın verdiyi məlumata görə, ziyarətçilər tərəfindən "Türk şəhidliyi" abidəsinin önünə əklil və gül dəstələri qoyulub.**

Yeni Azərbaycan Partiyasının nümayəndələri Azərbaycanın istiqlaliyyəti uğrunda canlarından keçən türk qardaşlarımızın əziz xatirəsini yad ediblər. Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyini, sarsılmazlığını əks etdirən bu məzarlıqda uyuyan türk şəhidlərinin qəhrəmanlığı və fədakarlığı dərin hörmət və ehtiramla xatırlanıb.





# AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini Efkan Ala YAP Mərkəzi Aparatına başsağlığı məktubu ünvanlayıb

**Türkiyənin Ədalət və İnkişaf Partiyasının (AK Parti) Sədrinin xarici əlaqələr üzrə müavini, Bursa millət vəkili Efkan Ala Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqova Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində törətdiyi genişmiqyaslı təxribat nəticəsində hərbi qulluqçularımızın şəhid olması ilə əlaqədar başsağlığı məktubu ünvanlayıb.**

Məktubda deyilir: "Sentyabr 12-i gecə və sentyabrın 13-ü səhər saatlarında Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilanla sərhəddə Ermənistan ordusunun genişmiqyaslı təxribat və hücumu nəticəsində Azərbaycan Ordusunun 50 hərbi qulluqçusunun şəhid olduğunu böyük kədərlə öyrəndim.

Sərhəd xəttindəki toqquşmalarda şəhid olan əsgərlərə Allahdan rəhmət, yaralılara şəfa diləyirəm.

Türkiyə olaraq "bir millət, iki dövlət" düsturu ilə Ermənistanın təxribatlarına qarşı haqlı mübarizəsində qardaş Azərbaycanın yanında olduğumuzu bir daha ifadə etmək istəyirəm. Sizə və Azərbaycan xalqına başsağlığı verir, kədərinizi ürəkdən bölüşürəm".

# ŞƏT G7-yə rəqib olacaqmı? - BÖYÜK SUAL

**Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) dünya səhnəsində çəkisi getdikcə artır. 2001-ci ildə Çin, Rusiya və Mərkəzi Asiyanın keçmiş sovet respublikaları tərəfindən yaradılan təşkilat Hindistan və Pakistan kimi Asiyanın ağır çəkili yeni üzvləri ilə genişlənib. Növbəti sırada İrandır və digər ölkələrin də təşkilata üzv olacağı ehtimalı çoxdur. Bu ehtimallar səbəbsiz deyil və bunu təsdiqi Türkiyə və Azərbaycan prezidentləri Rəcəb Tayyib Ərdoğanla İlham Əliyevin Səmərqəndə gəlməsidir. Sammitin gündəliyinə iqtisadiyyat və təhlükəsizlik sahələrində əməkdaşlığın inkişafı daxildir. Ukraynada və Tayvan ətrafında baş verən hadisələri nəzərə alaraq, Vaşinqton ŞƏT-in iclaslarından həddsiz ehtiyatlanır. Amma bu, bir sıra ərəb ölkələrinin müşahidəçi qismində ŞƏT-ə qoşulmasına mane olmayacaq.**

Rusiya prezidenti Vladimir Putinin köməkçisi Yuri Uşakovun sözlərinə görə, sentyabrın 15-də və 16-da sammitdə iştirak edən dövlətlərin liderləri ilə bir həftəyə kifayət edəcək qədər çoxlu söhbətlər aparılacaq. Onların arasında Qırğızıstan, Türkmənistan, Pakistan, Çin, Hindistan, Türkiyə, Azərbaycan və Özbəkistan liderləri var. Rusiya-Çin-Monqolustan üçtərəfli forumu da nəzərdə tutulub. Hazırda ŞƏT-ə Özbəkistan sədrlik edir və gələn il bu rol Hindistana keçəcək.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev təşkilatın dünya birliyi üçün siyasi və iqtisadi əhəmiyyətini xatırladıb. Bu regional təşkilat dünya əhalisinin təxminən yarısını özündə birləşdirir. ŞƏT-ə üzv ölkələrin ümumi ÜDM-i qlobal göstəricinin təxminən dörddə biridir. Mirziyoyev bildirib ki, əslində ŞƏT-i G7-yə alternativ də adlandırmaq olar. ŞƏT-in beynəlxalq hüquqi cəlbediciliyinin açarı onun qeyri-blok statusu və açıqlığıdır. Üçüncü ölkələrə qarşı yönəlməyib.

Lakin ABŞ ŞƏT-in bu qədər zərərsiz və dişsiz olduğuna inanmır. Əksinə, ABŞ dövlət katibi Entoni Blinkenin bəyanatlarından belə görünür ki, Çin onun ən qüdrətli üzvü kimi, Rusiya isə ŞƏT-dən Qərbə qarşı çıxan ölkələri birləşdirmək üçün istifadə etməyə çalışır. Bu mənada Amerikanın aparıcı mediası gələcək hadisələri şərh edir. "Washington Post" qəzetində "Demokratiya qaranlıqda ölür" başlığı altında Çin prezidenti Si Cinpinin Qazaxıstana zirvəyə gedərkən ilk dayanacağının edildiyi barədə məqalə dərc edilib. Bu o deməkdir ki, Xi-nin Qazaxıstan prezidenti Qasım-Jomart Tokayevlə danışıqları qazaxların Çinin Sincandakı uyğurlara hər hansı dəstəyinin qarşısını almaq, eyni zamanda Çinin Mərkəzi Asiya ölkəsinin iqtisadiyyatında dominant mövqeyini möhkəmləndirmək, Rusiyanı oradan sıxışdırmaq məqsədi daşıyır.

"Rusiyanın Mərkəzi Asiyada öz maraqları var. Lakin o, geri çəkilir, zəifləyir, xüsusən də Ukraynadakı uğursuzluqlarla əlaqədar", - Brüsseldəki Asiya Araşdırmaları Mərkəzinin direktoru Tereza Fallon bunu deyib. Amma bu, ekspertin proqnozlaşdırdığı kimi, Çinin ən azı sözlə desək, Ukrayna ilə münaqişəsində Rusiyaya dəstəyini davam etdirməsinə mane olmayacaq.




Ola bilsin ki, Səmərqənd sammitində Vaşinqtonun ŞƏT ölkələrindən ibarət koalisiyanın yaradılması ilə bağlı qorxuları gerçəkləşə bilər. ŞƏT nəinki mütəmadi olaraq birgə hərbi təlimlər keçirən regional antiterror strukturuna malikdir. Buna İranın ŞƏT-ə tamhüquqlu üzv olmaq perspektivi də əlavə olunur. Arabnews saytının vurğuladığı kimi, Tehran ölkədə İslam İnqilabının qələbəsindən sonra on ildir ki, buna çalışır. Amma bunun üçün müəyyən manelər var idi.

Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun İran şöbəsinin müdiri Nina Məmmədova qeyd edib ki, maneə İranın Qərbin sanksiyaları altında olması, habelə 6-lıq ölkələri ilə sazişin ləngiməsidir. İrana qarşı sanksiyalar ləğv edilməyib, nüvə proqramı ilə bağlı da razılaşma yoxdur. Amma vəziyyət dəyişib. Rusiya özü də sanksiyalara məruz qalıb. İndi Moskva və Pekin İranın ŞƏT-ə qəbul olunmasının tərəfdarıdır. Ölkənin daxili siyasi arenasında qüvvələr balansı baxımından bu, mühafizəkar qüvvələrin uğuru olacaq. Yəni prezident İbrahim Rəisi liberal sələfinin əldə edə bilmədiyi şeyə nail olacaq.

Sammitin açılmamış sirlərindən biri də bu sualdır: Hindistanın baş naziri Narendra Modi Pakistanın baş naziri Şahbaz Şəriflə görüşəcəkmi? Yeni əzəli rəqiblər barışıq yolunu tutacaqlarmı? Pakistan və Hindistan mətbuatı bu məsələ ilə bağlı ziddiyyətli xəbərlər dərc edir. Və arabnews iddia edir ki, Səudiyyə Ərəbistanı, Misir və Qətər qarşıdakı sessiyada təşkilatla dialoq tərəfdaşı olacaqlar.

**V.VƏLİYEV**



# “Ermənistan rəhbərliyi xarici havadarlarından aldıqları tapşırıqların əsirinə çevrilib”

## Siyasi partiya rəhbərlərinin erməni təxribatına BAXIŞI

**Sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törədib. Ermənistan silahlı qüvvələrinin diversiya qrupları sutkanın qaranlıq vaxtında ərazinin dağlıq relyefi və mövcud dərə boşluqlarını istifadə edərək müxtəlif istiqamətlərdə Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərin və təminat yollarının minalanmasını həyata keçirib. Bu əməllərin qarşısının dərhal alınması məqsədilə bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində döyüş toqquşması baş verib. SİA mövzu ilə bağlı Azərbaycanda fəaliyyət göstərən siyasi partiya rəhbərlərinin fikirlərini öyrənməyə çalışıb:**

**Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev bildirib ki, Ermənistan**



**Azərbaycana qarşı təxribat törətdi və layiqli cavabını da aldı:** ”Aydın görünür ki, Ermənistan revanşist əhval- ruhiyyədən əl çəkməyib. Azərbaycan ordusu da məhz döyüş sahəsində ermənilərin həm canlı qüvvələrini, həm də külli miqdarda olan silah-sursatını, hərbi texnikasını sıradan çıxartdı. Məhz bu hərbi-siyasi üsul davam etdirilməlidir”.

**Azərbaycan Naminə Alyans Partiyası-**



**nın sədri Abutalıb Səmədov** qeyd edib ki, Azərbaycan respublikasının Müdafiə Nazirliyindən verilən rəsmi məlumata görə sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribat törədilib: ”Prezident İlham Əliyev sentyabrın 13-də ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Filip Rikeri qəbul edərkən Ermənistan silahlı qüvvələrinin iki ölkənin sərhədinin Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törətdiyi genişmiqyaslı təxribatlar məsələsini bir daha gündəmə gətirib, Azərbaycanın Ermənistanın bu təxribatlarına cavab tədbirləri həyata keçirdiyini və baş vermiş təxribatlara görə bütün məsuliyyətin Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyünü qeyd edib.

Dünya birliyinə, o cümlədən, erməni təxribatlarını görməzdən gələrək ona dəstək verməkdə davam edən qüvvələrə yaxşı məlumdur ki, ardıcıl olaraq sərhəddə silahlı toqquşmalar təşkil edən qonşularımızın əsas məqsədi aparılan sülh danışıqlarını pozmaq, sülh sazişinin imzalanmasını mümkün qədər ləngitməyə çalışmaqdır. Törədilən hər təxribatdan sonra Ermənistan silahlı qüvvələri layiqli cavablarını alsalar da, Azərbaycan əsgərinin qəhrəmanlığına, yüksək hazırlıq səviyyəsinə, ordumuzun ən müasir silahlarla təchiz olunduğuna dəfələrlə şahid olsalar da çox təəssüf ki, pozuculuq fəaliyyətlərindən imtina etmək istəmirlər. Dünya birliyini, nüfuzlu beynəlxalq təşkilatları regionda sülhün təmin olunmasına qarşı yönələn bu cür pozuculuq fəaliyyətini görməzdən gəlməməyə, sülhə, dinc yanaşı yaşamağa mane olan təxribatların qarşısını almaq məqsədilə real fəaliyyət göstərməyə bir daha dəvət edirik. Son erməni təxribatı zamanı şəhid olmuş qəhrəman əsgərlərimizə Allahdan rəhmət, onların doğmalarına və bütövlükdə xalqımıza səbr arzulayırıq. Allah qəhrəman şəhidlərimizə rəhmət eləsin”.

**Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlunun** sözlərinə görə, baş verənlər bir daha Ermənistanın qeyri-ciddi və sabit olmayan şəxslər tərəfindən yönəldiyini nümayiş etdirdi: ”Proseslərin təhlili deməyə əsas verir ki, Ermənistan rəhbərliyi müstəqil qərar qəbul etmir, xarici havadarlarından aldıqları tapşırıqların əsirinə çevrilib. Paşinyan öz beynəlxalq himayədarlarından aldığı tapşırıqla hərəkət edir və qeyri-sabit siyasət yürüdür.

Görünən budur ki, Ermənistan təsirlər fonunda açıqlamalar, bəyanatlar verir, başı dəmir yumruq gördükdə isə səsləndirdiyi bəyanatlardan imtina edərək əksini bəyan edir. Düşünürəm ki, Azərbaycana qarşı Ermənistanın sərhəddə başlatdığı təxribat və pozuculuq fəaliyyəti əks effekt verib, düşmənin hərbi qüvvəsi cəsur ordumuz tərəfindən darmadağın edilib. Nəticədə Paşinyan hökuməti çətin duruma düşüb. Heç şübhəsiz ki, çıxış yolu sadədir. Ermənistan üzərinə götürdüyü öhdəlikləri zaman itirmədən icra etməli, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etməli və eyni zamanda Zən-



gəzur dəhlizi mövzusunda üzərinə götürdüyü öhdəliyə əməl etməlidir. Əks halda bu gedişlə 100 gün keçməz nə Paşinyan hökuməti qalar, nə də Ermənistan deyilən bir dövlət. Düşünürəm ki, nə qədər gec deyil, səhvlərini etiraf edib, aradan qaldırıb Azərbaycan xalqından üzr istəmələri daha faydalı olar”.

Ana Vətən Partiyasının sədr müavini Arzuman Abdulkərimlinin fikirlərinə görə, indiki Laçın və Kəlbəcər hadisələri 2020-ci ilin Tovuz hadisələrini xatırladır: ”Tovuz hadisələrindən sonra Qarabağın azadlığı uğrunda mübarizəyə qalxaraq torpaqlarımızı işğaldan azad etdik. Ali Baş Komandan İlham Əliyevin də qeyd etdiyi kimi münaqişə bitib. Artıq ”Dağlıq Qarabağ” adlı məsələ yoxdur. Sadəcə bundan qıcıqlanan bəzi dairələr yeni reallıqları həzm edə bilmirlər. Ermənistan



tərəfi bu təxribatları törətməklə münaqişənin hələ bitməməsini göstərmək istəyir. Hesab edirəm ki, Azərbaycan Ermənistanın nazıyla oynamamalıdır. Sülh prosesini ləngitməməliyik. Azərbaycan öz suverenliyini qorumalıdır. Hər birimiz bu məsələdə dövlətimizin yanındayıq. Düşünürəm ki, Azərbaycan ilə Ermənistan arasında bufer zona yaradılmalıdır”.

*Arzu Qurbanlı*

# Tovuz döyüşləri - Zəfərin başlanğıc məqamı!

*Bu döyüş Vətən müharibəsində qazanılan böyük Qələbənin qığılcımıdır*

Düşmən üzərində qələbə Azərbaycan tarixinin ən şanlı səhifəsidir. Lakin bu Zəfərin ayaq səslərinin eşidildiyi, xalqın müzəffər ordusuna etimadının özünə qayıtdığı Aprel, Günnüt və Tovuz döyüşlərini unutmaq olmaz. Çünki məhz həmin döyüşlərdəki qələbələrimiz xalqımızı torpaqlarımızın düşmən tapdağından azad edilməsinə ruhlandırdı. Azərbaycan Ordusunun qəhrəmanlıq salnaməsinə bir döyüş də - Tovuz döyüşləri qızıl hərflərlə yazıldı. Tovuz döyüşləri Silahlı Qüvvələrimizin şanlı Zəfər qazandığı Vətən müharibəsinə gedən yolun əsas mərhələlərindən oldu.Ümumiyyətlə bu əsas faktı qeyd etmək lazımdır ki, Ordumuzun böyük Qələbəyə doğru irəliləməsi 2016-cı il şanlı Aprel döyüşlərindən, 2018-ci il uğurlu Günnüt əməliyyatından və 2020-ci il iyulun 12-də baş verən Tovuz döyüşlərindən keçib. Ölkəmizə qarşı təxribatçı əməllərindən əl çəkməyən Ermənistan ordusunun növbəti diversiyasının qarşısının alınması ilə başlayan beşgünlük iyul döyüşlərində rəşadətli Ordumuz düşmənə sarsıdıcı zərbə vuraraq onun mənfur niyyətinin qarşısını alıb.Xalq Ali Baş Komandan, Prezident İlham Əliyev ərtafında birləşib haqq savaşına qalxdı. Qüdrətli sərkərdənin "Dəmir yumruq" əməliyyatı ilə Azərbaycan Ordusu 30 illik Qarabağ həsrətinə son qoydu.

### Ali Baş Komandan İlham Əliyev: "Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib"

İyulun 13-də Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. Bölmələrimiz düşmənin fəaliyyətinin qarşısının alınması məqsədilə cəza tədbirləri görüblər. Təxribatı davam etdirmək məqsədilə mövqelərimizə hücuma keçməyə cəhd göstərən qarşı tərəfin bu niyyətinin də qarşısı alınıb. Elə həmin gün Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuz rayonunun Ağdam və Dondar Quşçu kəndlərini minaatanlardan və toplardan atəşə tutublar. Düşmənin bütün təxribatlarına qarşı qoşunlarımız tərəfindən daha sərt cavab tədbirləri həyata keçirilib. Onun bir neçə hərbi obyekti və texnikası, həmçinin atəş mövqeləri, radiolokasiya stansiyası, şəxsi heyəti, tabor qərargahı və hərbi infrastrukturu bölmələrimizin dəqiq atəşi ilə darmadağın edilib. İyulun 14-də Ermənistan silahlı birləşmələri Tovuz rayonunun Ağdam, Əlibəyli və Dondar Quşçu kəndlərini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə məruz qoyub. Həmin gün döyüş zamanı müdafiənin ön xəttindəki Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov və polkovnik İlqar Mirzəyev, eləcə də düşmən hücumunun qarşısını alarkən beş hərbi qulluqçumuz qəhrəmancasına şəhid olublar. Bu, Azərbaycan Ordusunun general və digər yüksəkrütbəli zabitlərinin əsl vətənpərvərliyini, cəbhənin ön xəttində döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetməsini dünyaya nümayiş etdirib. Həmin gün bu istiqamətdə ağır döyüşlər gedib. Qarşı tərəf mülki əhalini və yaşayış məntəqələrimizi də atəşə tutub. Bu hadisələrdən sonra Azərbaycan Prezidenti Ermənistana qarşı cəza əməliyyatının başlanmasına dair göstəriş verib. Ali Baş Komandan İlham Əliyev həmin günlər deyib: "Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib". Ölkə rəhbəri Tovuzda baş verən hadisələri Ermənistanın növbəti təxribatı adlandırıb və Azərbaycanın ərazi bütövlüyünü qoruyacağını qətiyyətlə ifadə edib.

### Azadlıqdan Qələbəyə, Qələbədən Quruculuğa



Düşməndən təmizlənmiş torpaqlarda bu gün abadlıq, quruculuq işləri gedir. Öz doğma yurdlarından didərgin düşmüş insanlar tədricən həsrətini çəkdiyi yerlərə qayıdırlar.Lakin məğlubiyyətləri ilə barışmayan ermənilər öz bəd əməllərindən yenə də əl çəkmirlər. Kapitulyasiya aktının imzalanmasına və atəşkəsin elan olunmasına baxmayaraq, mövqelərimizi yenə də atəşə tuturlar. Yenilməz, hazırlıqlı, peşəkar hərbçilərimiz, vətənpərvər, igid əsgərlərimiz vətən torpağını ayıq-sayıq qoruyurlar.O da xüsusi şəkildə qeyd edilməlidir ki, ölkəmizdə vətən müharibəsində sağlamlığını itirmiş qazilərimiz də dövlət səviyyəsində daim diqqət mərkəzində saxlanılır. Xalqın böyük məhəbbətini, hörmətini qazanmış bütün qazilər xalqın qəhrəmanıdır. Onlara böyük hörmət və məhəbbət var. Lakin bir sıra qüvvələr daxildən təxribat törətməyə çalışırlar. Buna görə də hər kəs bu pravokasiyaların qarşısını almaq üçün çalışmalıdır.Beləliklə, Tovuz döyüşləri Ermənistanın hərbi gücsüzlüyünü, onun geosiyasi nüfuzunun zəifliyini və Azərbaycan Ordusu qarşısında məğlub olacağını bir daha göstərmiş oldu. Bütün bunlar xalqımızın döyüş ruhunun nə qədər yüksək olduğunu nümayiş etdirdi. Bu isə sonda mənfur düşmən üzərində qazanılacaq böyük qələbəmizin addım səsləri idi...Bəli, ordumuzun şanlı Aprel, Tovuz döyüşləri, uğurlu Günnüt əməliyyatı Azərbaycanın Vətən müharibəsində qazanmış olduğu Böyük Zəfərin ilk qığılcımları idi...

**RƏFİQƏ KAMALQIZI**

# Yeni həyat, yeni gün



Zəngilanın Ağalı kəndinə 29 ildən sonra yenidən günəş doğdu. O günəş ki, şəfəqləri ilə kəndə verəcək nuru, ziyanı daha da artırmış olacaq. Hər evdən yeni bir günəşin şəfəqləri boylanacaq. Elmi ilə sabahını nurlandıracaqdır. Paylandıqca tükənməyən bir xəzinəyə sahib olacaq bu kənd. İşığı nursuz diyarları rövnəqləndirəcəkdir. Ermənistanın işğalından azad olunan Zəngilan rayonunun Ağalı kənd tam orta məktəbində 29 ildən sonra ilk dəfə səslənən zəng onlarla məktəblini yenidən bir məkana topladı. Yeni həyat, yeni gün. 360 şagird yerlik ikimərtəbəli məktəbdə təhsil almaq üçün 60-dan çox şagird bir məslək, bir əqidə uğrunda burada təhsil alacaqlar. Elmli, savadlı və sabahın qurucusu olaraq yetişəcəklər. Azərbaycan gəncliyinin bir qismi bu məktəbdən boy atacaq. Onlar heç zaman acı bir həyat yaşamış ata-babalarının həyat hekayəsini unutmayacaq və nə üçün 29 ildən sonra bu məktəbdə ilk zəngin çalındığını daş yaddaşlara köçürəcəklər. Nə üçün Erməni təcavüzkar siyasəti nəticəsində əzəli torpaqlarından didərgin düşən insanlar məcburi köçkünə, qaçqına çevrildi. Çətin ictimai-siyasi böhran, soyqırımı vətən, torpaq həsrəti, çadır həyatı. Nələr yaşamadılar?! Erməni nankorluğu, faşist ideologiyası bizə bu dəhşətləri yaşatdı. Bu gün bu məktəbdən boy atanlar Azərbaycan həqiqətlərini qalaq-qalaq kitablara həkk edəcəklər.

### 29 İLDƏN SONRA AĞALIDA İLK DƏRS GÜNÜ

Ağalıda ilk dərs günü. 2021-ci ilin aprelin 26-da Prezident İlham Əliyev tərəfindən Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin təməli qoyuldu. Bu il mayın 27-də "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi olub. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva mərasimdə iştirak etdilər. İşğala qədər bu inzibati ərazini 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda isə 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1504 nəfər). Ağalı kənd sakinlərinin ilk qrupu 2022-ci il iyulun 19-da, ikinci qrupu isə sentyabrın 7-də və 10-da doğma yurdlarına qayıtdılar.

### "AĞALI KƏNDİNİN TİMSALINDA HƏR BİR AZƏRBAYCAN VƏTƏNDAŞI VƏ ÜMUMİYYƏTLƏ, HƏR BİR İNSAN BİZİM PLANLARIMIZI GÖRƏ BİLƏR"

2020-ci ilin sentyabrın 27-də Azərbaycan Ordusunun Qarabağda başladığı əks-hücum əməliyyatı Zəfərimizlə başa çatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika nəticəsində 44 gün ərzində 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad olundu. Bu gün Azərbaycan yeni bir dövrünü yaşayır. İşğal altından azad olunan ərazilərimizdə abadlıq-quruculuq işələri sürətlə davam etdirilir. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir. Müasir tələblərə cavab verən Füzuli Beynəlxalq hava limanının qısa müddətdə və yüksək keyfiyyətlə inşası Azərbaycan dövlətinin qüdrətini göstərməklə yanaşı, bölgəyə səfər edənlərin rahatlığının təminində önəmli faktordur. 8 ay ərzində inşa olunan Füzuli Beynəlxalq Hava Limanı Azərbaycan reallıqlarından dünyaya bir mesaj oldu ki, ölkəmiz müharibədən sonra belə iri layihələrin icrasını uğurla reallaşdırdı.

Zəngilan rayonun Ağalı kəndində sürətlə görülən işlər buranı müasir bir məkana çevirdi. "Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər", - deyə Prezident bildirib. Burada insanlar üçün hər bir şərait yaradılıb. Ağalı kəndində "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" mərkəzi, DOST mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi fəaliyyət göstərir. Ailə sağlamlıq mərkəzi, uşaq bağçası inşa olunub. İşğaldan azad olunan digər ərazilərimizdə görülən işlər deməyə bir daha əsas verir ki, Şuşaya, Füzuliyə, Ağdama və digər ərazilərimizə Böyük Qayıdışımızı daha da yaxınlaşdırır. Bu ərazilərdə əzəli tarixi torpağın sakinləri yenidən yurd salacaqlar. İndi insanlar öz əzəli torpaqlarında rahat nəfəs alırlar. Torpaqla uzun həsrətdən sonra görüş oldu. Tükürpədicidir. Torpağa qayıdış!!! Torpağa salam vermək, onu qucaqlamaq. Bu ürək döyüntüləri. Gizli ürəyə axan sözlərin nisgilini, fərəhini qələmə almağa bəlkə də güc çatmaz. Kimləri itirdik, deyə bu torpağa ayaq basanlar bir ömür yaşadıqları acını bəlkə də kəndin astanasında bir anlığa unutdular. Əziz Ağalı, ruhən, mənən, cismən əbədi olaraq bu torpağa qayıtmışam!!!

**Nəzakət ƏLƏDDİNQIZI**

# Mina basdıranlar və mina axtaranlar

**Azərbaycanın böyük şairi Mirzə Ələkbər Sabirin dahiyanə bir sözü var: Çalxalandıqca, bulandıqca zaman nehrə kimi, yağı yağ üstə çıxır, ayranı ayranlıq olur. Hər müharibə zamanı və məkanı, hər döyüş mövqeyi və münasibəti dəyişdirən, aydınlaşdıran bir təbəddülat, bir çalxalanma, silkələnmədir. 44 günlük Vətən müharibəsi həm də zamanın silkələnməsi, münasibətlərin aydınlanması, dost-düşmənin tanınması güzgüsü oldu.**

Bu baxımdan 12 sentyabr döyüşləri fonunda bəzi müşahidələrimi və qənaətlərimi bölüşmək istəyirəm.

Sentyabrın 12-də müzəffər Milli Ordumuz Ermənistanın növbəti təxribatının qarşısını aldı, düşmənə və onun havadarlarına növbəti dəfə dərs verdi. Döyüşlərin sonucu olaraq mövqelərimizi daha da möhkəmləndirdik, bir neçə yüksəkliyi fəth etdik.

Düşmənin hərbi arsenalını darmadağın etdik, canlı qüvvəsini məhv edərək yerində oturtduq!

İndi biz bütün cəbhə boyu düşməni öz ərazisində izləyə bilirik, nəzarətdə saxlayırıq.

Şəhidlər verdik, qazilərimiz, yaralılarımız var, canımız ağrıyır, içimiz göynəyir. Şəhidlərimizə Allahdan rəhmət diləyir, ailə üzvlərinin kədərinə şərik oluruq.

Qazilərimiz, mülki yaralılarımız hərbi hospitallarda, xəstəxanalarda hər cür tibbi yardımla təmin edilib, qayğı ilə əhatə olunub. Onların tezliklə sağalmalarını arzu edirik!

Ermənistanın və Azərbaycanın rəhbərlərinin davranışı da fərqli oldu: təxribat başlayan gecəsi Ermənistanın baş naziri səhərəcən telefonun dəstəyindən asılı qaldı, Paşinyan Moskvaya, Parisə, Vaşinqtona zənglər etdi, kömək istədi, KTMT-yə müraciət elədi, parlamenti topladı. İrəvanda əhali istefa şüarları ilə küçələrə töküldü.

Azərbaycanın Ali Baş Komandanı isə heç kəsə zəng vurmadı, əksinə, müxtəlif ölkələrin dövlət başçıları vəziyyəti öyrənmək üçün Ona telefon açdılar.

Azərbaycan Prezidenti özünə xas təmkinlə və inamla dünyaya və doğma xalqına erməni təxribatı barədə məlumat verdi, cəbhə bölgəsindəki vəziyyətin Milli Ordumuzun nəzarəti altında olduğunu bildirdi.

Xalqımız yenə də möhkəm milli birlik nümayiş etdirdi, öz, şəhidinin, qazisinin, Ordusunun, Ali Baş Komandanının yanında olduğunu bəyan və sübut etdi.

Təəssüflər olsun ki, yenə də birliyimizi parçalamaq istəyən, uğurumuza kölgə salmağa çalışan bədniyyətlərin təxribarçı çağırışlarını, xain davranışlarını postmüharibə dövründə də, 12- 13 sentyabr döyüşləri zamanı da müşahidə etməkdəyik. 12 sentyabrda düşmənin təxribatçı dəstələri ərazimizə sızaraq keçidlərə, yollara minalar basdırmaqla təxribat törətdilərsə, eyni düşmən qüvvələrinə xidmət edən təxribaçı qruplar sosial media məkanına sızdırılaraq çaşqınlıq, ruh düşkünlüyü, fikir ayrı- seçkiliyi yaratmağa, mənəvi terrora cəhd göstərmək istədilər. Pasifist fikirləri tirajlamaq, uğurlu döyüş əməliyyatımızı gözdən salmaq, şəhidlərimizin dəfn və yas mərasimlərində müxtəlif ideoloji qrupların təbliğ edilməsi, tik- tok şəbəkəsində düşmənə yönəlik subliminal mesajların verilməsi davranışları təxribatdır və müharibə dövrünün qaydalarına uyğun sərt tədbirlər görülməsini zəruru



*Musa Urud*
*millət vəkili, YAP İdarə heyətinin üzvü*

edən amillərdir.

... "Şuşanı hüseyinçilər azad etdi",- çağırışı təxribatdır.

... Biz niyə 10 noyabrda atəşi dayandırdıq, Xankəndinə girmədik sualı təxribatdır.

...Laçından, Zabuxdan, Susdan çıxan ermənilərə kompensasiya ödənilb iddiası təxribatdır.

... Zəngəzur koridorunun açılmasını əngəlləyən bəyanatlar, Qafanda konsulluq açılması təxribatdır.

... "Kərimə dövləti", "Salam, Fərmandeh" təbliğatı aparmaq təxribatdır.

"Şəxsən mənə İrəvan, Zəngəzur, lazım deyil"- fikirlərinin dövriyyəyə buraxılması təxribatdır.

..."İlham Əliyev niyə Zəngəzurdan danışır, heç Laçının adını çəkmir" ritorikası təxribatdır.

...Təbii ki, kiminin şapkasının altından, kiminin əbasının ətəyindən, kiminin çəkməsinin böğazından baş uzadıb çükküldüyən bu sərçəciklərin zəhlətökən cırıltıları milli birliyimizi sarsıtmaq gücündə deyildir. Ancaq bu cür davranışları da dövlətçiliyimizə qarşı güc nümayişi kimi qəbul etməyin və vaxtında lazımi tədbirlərin görülməsinin vacibliyini də qeyd etməməyə bilmirəm.

"Mənə İrəvan, Zəngəzur lazım deyil", - deyən şəxs azərbaycanlıdırsa, demək vətən xainidir!

Özünü tarixçi alim adlandıran Altay Göyüşov adl bir antimilli ünsür İrəvana, Zəngəzura dil uzadır, öz halal torpaqlarımızı qoruyarkən şəhidlər verən ordumuzu təcavüzkar adlandırır. Bu təxribatçı fikirlər onun öz sərsəm düşüncəsinin məhsuludur, yoxsa ağalarının sifarişidir,- deyə bilmərəm. İstənilən halda antimilli mövqe ortadadır. Onun ziyanlı fikirlərini sosial şəbəkələrdə dəstəkləyən nadanların kimliyi də araşdırılmalıdır.

"Şəxsən mənə İrəvan, Zəngəzur, lazım deyil"-. deyən zavallı, sən nə bilirsən Vətən nədir, sən nə bilirsən milli namus, qeyrət nədir. Əlbəttə, bayquşa vətən lazım deyil, ulayın sığındığınız yadların xarabalarında. Zəngəzurun, İrəvanın müqəddəs adını yad yalından mürdarlanmış dilinizə dolaşdırmayın!

... Əli Kərimli, -"İlham Əliyev niyə Zəngəzurdan danışır, heç Laçının adını çəkmir"-, söyləyirdin, indi niyə utanıb ölmürsən? Sənin deqradant qafan dərk eləmirmi ki, elə Zəngəzur həm də Laçın deməkdir.

Bəs Laçın, Zabux, Sus kəndləri ermənilərdən təmizlənəndən sonra niyə böhtan və iftiralarından dolayı Azərbaycan xalqından və cənab Prezidentdən üzr istəmədin?

Siz deyildinizmi, 44 günlük Vətən müharibəsi bitəndən sonra,- "qələbə yarımçıqdır"-, bağıranlar ?

Siz deyildinizmi, niyə ordumuz Xankəndinə girmədi deyərək şərə xidmət göstərənlər?

Zatən sizin qarnınızın ağrısı bəllidir. Sizi ağrıdan odur ki, niyə İlham Əliyev bu qədər güclüdür, niyə Azərbaycan müharibəni uduzmadı, niyə torpaqlarımız işğaldan azad edildi?

Yoxsa 1992- ci ildəki senarini indi də gözləyirdiniz? 1992- ci ildə Şuşanı və Laçını təhvil verib hakimiyyətə gəldiniz, yaratdığınız xaos və hərcmərclik nəticəsində əvvəl Kəlbəcər rayonu, sonra digər bölgələr işğal olundu. 15 min şəhidin, 4 min itkinin, 20 min qazinin qanı sizin üzərinizdədir, nə bu dünyada, nə axirətdə bu günahınız yuyulan deyildir!

Siz elə 1992- ci ildə də qalmısınız. Amma unutmayın ki, nə zaman, nə xalq, nə də hakimiyyət 1992- ci ildəki deyildir! Və həm də unutmayın ki, Dəmir Yumruq yerindədir!

...Müharibə bitməyib, bütün cəbhələrdə döyüşə hazır olmalıyıq. Bəli, düşmənin təxribatının qarşısını alarkən şəhidlər vermişik, yaralılarımız var, amma düşməndən qisasımızı da almışıq, bütün cəbhə boyu strateji yüksəklikləri götürmüşük!

Təhlükəsizlik zolağını təmin etdik, məcburi köçkün soydaşlarımızın geri dönüşünün təhlükəsizlik təminatını yaratdıq, sərhədlərin müəyyənləşməsi şərtlərini diqtə etdik.

Torpaqlarımızı qorumaq o zirvələrdə ay - ulduzlu bayrağımızın daimi dalğalanmasını təmin etmək üçündür bu şəhidliyimiz!

...Bir şəhid vermədən Ağdam, Kəlbəcər, Laçın rayonlarını düşməndən azad etdik, Fərrux dağını götürdük, bir güllə atmadan Laçın şəhərini, Zabux və Sus kəndlərini geri aldıq.

Qəhrəman 12 sentyabr şəhidlərimizin və qazilərimizin şücaəti hesabına düşmən təxribatının qarşısını aldıq, mövqelərimizi daha da gücləndirdik.

Amma nə qədər ki, müharibə bitməyib, nə qədər ki, Ermənistanla sülh müqaviləsi imzalanmayıb, gərginlik də olacaq, toqquşma da olacaq, itkilərdən də heç kəs sığortalanmayıb.

Nə qədər ki, müharibə bitməyib, ruh düşgünlüyü aşılayan, bölücülük yayan pasifist ritorika düşmənə qulluq göstərməkdir, milli xəyanətdir.

Azərbaycan Respublikasının birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyeva xalqa müraciətində çox haqlı olaraq qeyd edir:

"Öz Vətəninə nə dərəcədə nifrət etməlisən ki, Azərbaycan Ordusunun düşmən təxribatına layiqincə cavab verdiyi bir vaxtda üçüncü ölkələrdə gizlənərək "darmadağın edilmiş" Azərbaycan mövqeləri, mülki əhali arasında çoxsaylı insan tələfatı haqqında yalanları efirə verəsən, həmvətənlərimizin qəlblərinə təlaş, qorxu və məyusluq yeridəsən? Yaxud əhəmiyyətsiz, həyata keçirilməz siyasi ambisiyalar naminə parçalanma, hərc-mərclik, qarışıqlıq yaratmaq üçün Azərbaycan gənclərinin vətənpərvərlik əhval-ruhiyyəsindən istifadə etməyə çalışasan?

Bu hərəkətlərə və belə insanlara haqq qazandırmaq olmaz. Onların öz torpağı naminə canından keçməyə hazır olan milyonlarla azərbaycanlı ilə ümumi heç nəyi yoxdur və ola da bilməz".

Artıq milli xəyanət yolunu tutmuş, açıq - aydın erməni faşizminin havadarlarına çevrilmiş antimilli şuranın ələkçiləri və əkəlçilərin qıl verənlərinin (Əli Kərimli, Arif Hacılı, Altay Göyüşov, Qubad İbadoğlu, Fuad Qəhrəmanlı, Seymur Həzi, Tofiq Yaqublu, Əfqan Muxtarlı və b.) dövlət əlehyinə fəaliyyəti müvafiq qurumlar tərəfindən nəzarətə götürülməli, araşdırılmalı və dəyərləndirilməlidir.

Müraciət edirəm DTX- nə, Respublika Prokurorluğuna, Daxili İşlər Nazirliyinə və digər hüquq mühafizə orqanlarına: sosial şəbəkələrdəki bu təxribatçı ünsürləri, ermənidən çox erməni, düşməndən artıq düşmən olan bu satılmış xəyanətkarı cəzalandırmaq üçün hərəkətə keçmək vaxtıdır!

Hər kəs öz əməlinə görə cavab verməli, məsuliyyət daşımalı, cəmiyyət bu zir- zibildən təmizlənməlidir!

İranda, Rusiyada, Amerikada, Avropada internet televiziya, Yutube kanalları, sosial şəbəkə səhifələri yaradaraq Azərbaycan əleyhinə yayımlar edən, böhtan atan, şaiyələr yayan, təxribat törədən, əxlaqsızlığı və şərəfsizliyi özlərinin həyat kredosuna çevirmiş xainlər tutulub gətirilməli, cəzalandırılmalıdır.

Necə ki, səngərin o üzündə qudurmuş erməni itlərini məhv etdik, eləcə də xainlik yolunu tutmuş, antiazərbaycan güclərin bir yalaq yalına Vətəni və dövləti satan, antiterror, antitəxribat əməliyyatımızı işğalçılıq adlandıraraq şəhidlərimizi, qazilərimizi aşağılayan "sünnət olunmuş ermənilər" də neytrallaşdırmaq zamanı yetişmişdir! Quduzluğa tutulmuş itlərə vaksinin heç bir əhəmiyyəti yoxdur!

Elektron KİV - ləri, sosial şəbəkələri zir- zibildən, söyüşdən, böhtandan, təxribatdan, reketçilikdən, qisasçılıq müstəvisindən təmizləmək, normal, sivil müzakirə, fikir mübadiləsi platformasına çevirmək üçün gərəkən bütün addımları atmalıyıq. Bu baxımdan mən hörmətli media kapitanlarımız Mirşahinin, Rauf Arifoğlunun, Eynulla Fətullayevin, Rəşad Məcidin, hörmətli millət vəkilləri Hikmət Məmmədovun, Fazil Mustafanın, Zahid Orucun, Sahib Alıyevin və digər həmkarlarımızın çağırışlarına qoşuluram, sağlam düşüncəli və mənəviyyatlı hər kəsi şərlə mübarizəyə səsləyirəm!

Ümummilli Lider Heydər Əliyevin şah əsəri olan, cənab Prezident İlham Əliyevin yorulmaz səyləri nəticəsində qüdrətli bir dövlətə çevrilmiş Azərbaycanımızı heç zaman oyun qurbanı etməyəcəyik. Oyunbazlar hansı cəhənnəmdə istəyirlər öz oyunlarını oynasınlar.

Hər kəs bilməlidir ki, müqəddəs üç rəngli bayrağımız Ali Baş Komandan İlham Əliyevin qüdrətli əllərində daimi olaraq yurdumuzun başı üstündə dalğalanacaqdır!

...Vətən torpaqlarını hərbi, siyasi, mənəvi minalaradan təmizləmək üçün bütün gücümüzü səfərbər etməliyik və edəcəyik.

...Biz mina axtaranlarıq...

...Səhv etməyə haqqımız yoxdur!

# "ŞƏT yeni əməkdaşlığın qurulması üçün münbit bir platformadır"

"Bildiyimiz kimi 15-16 sentyabr tarixlərində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının növbəti iclasında iştirak etmək üçün Səmərqənd şəhərinə səfər edib. Bu Azərbaycanın təşkilatın işində qonaq qismində ilk iştirakıdır. Bölgədə baş verən siyasi proseslər fonunda Azərbaycanın bu görüşdə iştirakı bir neçə məqamdan olduqca vacibdir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Amid Əliyev deyib.

Onun sözlərinə görə, ilk növbədə Şanxay Əməkdaşlıq Təşkilatı yeni əməkdaşlığın qurulması üçün münbit bir platformadır: "Təşkilat üzvlərini daha çox iqtisadi maraqlar birləşdirsə də Nizamnamədə birgə olaraq terrorizm, ekstremizm və separatizmə qarşı mübarizə də öz əksini tapıb. Sonrakı mərhələdə




Azərbaycanın iştirakı ona görə vacibdir ki, ŞƏT-na üzv olan dövlətlərlə Azərbaycanın ikitərəfli və çoxtərəfli müstəvilərdə əməkdaşlığı mövcuddur. Bura əsasən Türkiyə və Orta Asiya ölkələrini əlavə etmək olar. Xüsusilə Qazaxıstan və Qırğızıstanın cəbhədə baş vermiş erməni təxribatına qarşı göstərdiyi adekvat cavabdan sonra müzakirə üçün bir sıra ortaq məqamların olması müəyyən olundu. KTMT-nin daxilində bu ölkələrin Ermənistana silahlı qüvvəllər göndərməməsi haqqında olan bəyanat Ermənistan cəmiyyətində bomba partlayışı kimi qarşılandı. Bundan əlavə görüşdə region üzrə aparıcı dövlətlər olan Rusiya və Türkiyə dövlət başçılarının iştirakı da Azərbaycan üçün bu görüşü vacib etdi.

Belə ki, hər iki dövlət Azərbaycanın strateji müttəfiqidir və eyni zamanda da regionda sülhün qarantoru rolunda da çıxış edirlər. Son təxribatlar və Ermənistanın siyasi rəhbərliyinin bu görüşdə iştirak etməsindən imtina etməsi və Ermənistanın gələcək taleyi haqqında mühüm məsələlər çox güman ki, bu dövlətlər arasında müzakirə obyekti olacaq. Çünki, Ermənistanın son törətdiyi təxribat təkcə Azərbaycana qarşı deyil, eyni zamanda Türkiyə və Rusiyanın da bölgədə nüfuzuna xələl gətirməsinə hesablanıb. Məhz bu səbəbdən də Səmərqənd görüşündə yaxın gələcək üçün Ermənistanın taleyini həll edəcək mühüm qərarların verilməsi və Azərbaycanın sülh gündəliyinin dəstəklənməsi istiqamətində mühüm qərarlar verilə bilər".

***Arzu Qurbanlı***

# Dövrümüzün xainləri: zaman öz cavabını verəcək!



**Onların hər birinin içində ermənidən artıq ermənicilik hüceyrələri formalaşıb və bu hüceyrələr onları zahirən azərbaycanlı kimi göstərsə də, daxilən andranikləşdirib, hamazaplaşdırıb, njdeləşdirib, zoriləşdirib, hnçaklaşdırıb, silvalaşdırıb, daşnaklaşdırıb - bir sözlə, murdarlaşdırıb!**

İstər 4 günlük Aprel müharibəsində, istər 44 günlük Vətən müharibəsi dövründə, istərsə də sonuncu ”Qisas” və ”Qətiyyətli cavab” əməliyyatları dövründə mənfur düşmənin başını əzən qüvvəyə, Azərbaycan Ordusuna dəstək olan güclərdən ən əsası xalq birliyi oldu. Məhz vahidlik, eyni yerə zərbə endirmək ruhu Azərbaycan dövlətinin adını qaliblər sırasına yazdı, yağı düşmənin, işğalçı Ermənistanın kapitulyasiya aktını rəsmiləşdirdi.

## Azərbaycan əsgəri və zabiti bir ölürsə, min dirilir!

Lakin daha bir məqamı da xatırlatmaq mövzu ilə bağlı üst-üstə düşərdi - Vətən müharibəsindən sonra yerli və xarici media orqanlarına çoxsaylı müsahibələr verən Müzəffər Ali Baş Komandan, Prezident İlham







Əliyev hələ onda xüsusilə vurğulayırdı ki, Ermənistana etimad göstərmək, inanmaq olmaz, bu ölkədə kimlərin iqtidarda olmasına baxmayaraq onların işğalçılıq xislətləri daim qalmaqdadır. Ona görə də, Azərbaycanın şanlı Silahlı Qüvvələri hər an baş verə biləcək təxribatlara cavab vermək üçün hazır olmalıdır. Və belə də oldu!

Düşmən bir daha öz çirkin niyyətini ortaya qoydu və sentyabrın 12-13-də və daha sonrakı günlərdə törətməyə çalışdığı təxribatlarına görə ağır zərbələrini aldı, deməli olar ki, milyardlıq dəyərində olan silahları məhv edildi, hərbi hissələri darmadağın olundu, kütləvi canlı və texnika itkiləri ilə geri çəkilməyə məcbur qaldı. Belə bir məqamda canlarını Vətən və ərazi bütövlüyümüz uğrunda fəda edən oğullarımız da oldu. Onlar bir daha öz şücaətləri, hədsiz qəhrəmanlıqları ilə dünyaya səs saldılar, sübut etdilər ki, Azərbaycan əsgəri və zabiti bir ölürsə, min dirilir!

## Onlar bu dəfə də xəyanətkarlıq, satqınçılıq kimi idbar əməllərini məhz erməni baronları tərəfindən verilən xüsusi tapşırıq əsasında realizə etməyə başladılar

Ancaq təəssüf ki, kökləri tarixin ən qədim dərinliklərinə qədər uzanan Azərbaycan adlı nəhəng ağacın içindəki xəbis qurdlar yenidən tərpənməyə başladı və onlar bu dəfə də xəyanətkarlıq, satqınçılıq kimi idbar əməllərini məhz erməni baronları tərəfindən verilən xüsusi tapşırıq əsasında realizə etməyə başladılar.

Belə ki, Altay Göyüşov adlı bir qanıpozuq 30 il boyunca işğala məruz qalmış torpaqlarımız uğrunda canlarını fəda etmiş şəhidlərimizin qanına həqarət edərək ”Tüpürüm Qarabağa”, ”Tüpürüm Zəngəzura” tipli iyrənc fikirləri ilə, üstəlik, bu da azmış kimi, Azərbaycan Ordusunu təcavüzkar göstərmək adı altında gündəmə gəlməyə cəhd etdi, Əli Kərimli kimi siyasi fahişə bir daha ortaya çıxaraq qalibiyyət ruhumuza pəl vurmağa çalışdı və guya şəhidlərimizə yanırmış kimi baş verənləri ”aqressiya” kimi təqdim etməyə səy göstərdi, onun kimi Gültəkin Hacıbəyli, Arif Hacılı, Qubad İbadoğlu, Cəmil Həsənli adlı bişərəflər (bəli, əsla yanılmadınız, məhz bişərəflər!-R.R.) toplumu guya hakimiyyəti hədəfə alırmışlar kimi əslində dövlətin və xalqın maraqlarını bizi istəməyən qüvvələrin ayaqları altına atdılar və bir də xaricdə oturub haram erməni tikəsi ilə gödənlərini doldurub anti-Azərbaycan fəaliyyəti göstərən siyasi fahşələr yığnağı - Qənimət Zahid, Məhəmməd Mirzəli, Tural Sadıqlı və s...



Onların hər birinin içində ermənidən artıq ermənicilik hüceyrələri formalaşıb və bu hüceyrələr onları zahirən azərbaycanlı kimi göstərsə də, daxilən andranikləşdirib, hamazaplaşdırıb, njdeləşdirib, zoriləşdirib, hnçaklaşdırıb, silvalaşdırıb, daşnaklaşdırıb - bir sözlə, murdarlaşdırıb!









Yeri gəlmişkən, hələ 2016-cı ildə böyük qələbəmizə yol açan Aprel Zəfərindən sonra ”Milli Şura” adlı satqınlar mərkəzinin aparıcı simasızlarından olan Gültəkin Hacıbəylinin və Cəmil Həsənlinin keçirdikləri mitinqləri zamanı işlətdiyi ifadəsini xatırlatmaq istərdim.

Həmin vaxtı o tribunaya qalxaraq əllərini oynada-oynada bar-bar bağırırdı ki, guya Azərbaycan əsgər və zabitləri düşmənlə mübarizəyə "sınıq silahlarla" öldürülməyə göndərilirmişlər (?!-R.R.) Bir insan nə qədər həyasız, simasız və siyasi fahişə olmalıdır ki, öz ölkəsinin ordusu, əsgəri haqqında düşmən qarşısında belə bir yalan rəy yaratsın!

Halbuki, o zaman Azərbaycan Ordusu ilk dəfə zərbə PUA-larını işə salaraq düşmənin belini qırmışdı. İrəvandan Qarabağa doğru hərəkət edən bir avtobus erməni könüllüsünün kül olması faktı da bu arada xatırlanmalıdır...

Yalnız Ermənistanın o zamankı rəhbərliyinin yalvarışları qarşılığında əks-hücum əməliyyatlarını dayandırdı!

## Düşmən mediasının çiçəyi çırtlamışdı - Əli Kərimli(YAN)

Daha bir fakt - AXCP sədri Əli Kərimli də o dövrlərdə Azərbaycanın strateji və mühüm qələbəsini kölgəyə atmaq üçün erməni baronlarına xidmət göstərdiyi fahişəpulu müqabilində daxilindəki çirkabları ortaya çıxardı. Ermənistanda fəaliyyət göstərən ru.1in.am saytı AXCP sədri Əli Kərimlinin çıxışından sitat gətirərək "Milyard dollarlar israf etmiş ordu bu qədər itki verməməliydi - Azərbaycan müxalifəti" başlıqlı yazı ilə çıxış etdi. Həmin vaxt Ermənistan mediası bu ünsürün fikirlərini manşetlərə çıxararaq yazırdılar: "Azərbaycanın əsas müxalifət partiyası olan AXCP-nin lideri Əli Kərimli silahlanmaya on milyardlarla dollar pul sərf etmiş ordunun bu qədər, 100 nəfərə yaxın itki verməməli olduğunu deyib. Erməni saytı bu sözlərin "Azadlıq" qəzetində yazıldığını qeyd




edib.

**Sayt yazıb:** "Əli Kərimli itkiləri əks etdirən gerçək rəqəmlərin xalqdan gizlədilməsindən narazılığını bildirib və qeyd edib ki, onlar bu rəqəmləri sosial şəbəkələrdən və jurnalistlərdən dəqiqləşdirməyə məcburdurlar".

"Beləliklə, hakim Yeni Azərbaycan Partiyası bir daha göstərdi ki, onun üçün prioritet məsələ Qarabağ deyil, öz hakimiyyətinin qorunub saxlanmasıdır", - deyə erməni saytı AXCP sədrinin ifadələrinə yer verməklə dərhal Əli Kərimlinin atdığı padan öz səmərəsi üçün maksimum istifadə etməyə çalışıb.

Qeyd edək ki, bundan əvvəl erməni saytları bir neçə dəfə Əli Kərimlinin Qarabağ cəbhəsində hərbi əməliyyatların şiddətlənməsi ilə əlaqədar sosial şəbəkədə yazdığı və peşəkar mediada dərc olunan fikirlərindən sitatlar yer vermişdi. Və bu gün də Əli Kərimli düşmən mediasının fikirlərinə məmnuniyyətlə istinad etdiyi ünsürlər sırasında başda dayanır.




## Mövzuya görə dəyişdirilmiş atalar sözü - Atı-atın yanına deyil, iti itin yanına bağlasan...

Bu arada, "Tüpürüm Qarabağa", "Tüpürüm Zəngəzura" kimi axmaq fikirləri ilə gündəmə düşən Altay Göyüşov adlı erməniqanlı köpəyin zaman-zaman Əli Kərimlini vəsf etməsi, onunla fotoşəkillər paylaşması kimsəni təəccübləndirməməlidir. Ataların bir misalını azca dəyişərək həmin fikri bu cür dəyişik fonda təqdim etmək olar - İti-itin yanına bağlasan həmrəng olmasalar da, həmxasiyyət olarlar...

## Məhəmməd Mirzəli hansı yuvanın QUŞU olduğunu növbəti dəfə sübut etdi

Bu gün xaricdə oturub ağına-bozuna baxmadan və 100% özlərinə bumeranq şəklində geri dönən söyüşləri ilə sosial şəbəkələrdə saç-başlarını yolan, üz-gözlərini lezvalayan, bəlkə də Avropa ölkələrinin ən ucuz bordellərində öz bədənlərini satan fahişələrdən belə, ucuz qiymətə özlərini satışa çıxaran siyasi tolkuçka nümayəndələri də bilməlidirlər ki, gec, ya da tez bu xain əməllərinə görə cavab verməli olacaqlar. Təkcə son hadisələr zamanı Məhəmməd Mirzəli adlı bir bişərəfin erməni sosial şəbəkə istifadəçiləri ilə yazışmalarına nəzər salmaq kifayət edər ki, bu binamus hansı yuvanın quşudur...

Ümumiyyətlə, kimliyindən, hansı siyasi məzhəbə qulluq etməsindən asılı olmayaraq artıq sümüyə dirənmiş bıçağın həmin ünsürlərin murdar ağızlarına da saplanacağı gün heç də uzada deyil. Əslində, bu ifadə heç də təhdid deyil və bunu təhdid kimi anlamaq da doğru olmazdı, bu sadəcə zamanın, vaxtın, heysiyyatlarına toxunulmuş Azərbaycan xalqının xəbərdarlığıdır, sadəcə xəbərdarlığı. Yəni, zaman öz axarındadır və cavablarını da zaman özü verəcək, az qaldı...

***Rövşən RƏSULOV***

***P.S. Məhz yuxarıda qeyd edilən bəzi faktları önə sürməklə deyə bilərik ki, adıçəkilən siyasi möhtəkirlərin heç vaxt ədalətdən, düzgünlükdən, ələlxüsus isə xalqın adından danışmağa mənəvi haqları yoxdur. Nə Azərbaycan barədə, nə də adicə insanlıq barəsində. Çünki belələrinin atdığı iyrənc, mənfur addımların hər biri xəyanətkarlıq, milli satqınçılıq olmaqla yanaşı, həm də qeyri-insani təzahürlərdir.***



# “Qarabağı satanlar Qarabağı geri qaytaranları ittiham edə bilməz”

## Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayevin SİA-ya müsahibəsi



***- Erməni vandallarının təxribatlarına haqq qazandıran Əli Kərimli, Tofiq Yaqublu, Qubad İbadoğlu və digərləri bununla erməni maraqlarına xidmət etdiklərini demək olar?***

- Erməni vandallarının başqa bir tayları da öz içimizdədir, radikal müxalifət cəbhəsində. Əllərinə fürsət düşmüşkən mümkün olan bütün iyrənc vasitələrdən istifadə edərək dövləti, hakimiyyəti vururlar. Namərdcə, bəsitcə, alçaqca. Üstəlik, bu nadanlar ən sentimental, kövrək, həssas mövzular üzərindən də manipulyasiya etməyi bacarırlar. Özlərini axırıncı yola qoyublar. Əli Kərimli adında siyasi mürdəşir (+ ona bənzər qeyriləri) fit verir və özü ağılda qıpçaqlar da qaçır bu vicdanı qısır qalan məxluqun ardınca.

***- Əli Kərimli sosial şəbəkələrdə törədilən erməni təxribatı ilə bağlı yanlış informasiyalar paylaşır. Sizcə, o bununla xalqın heysiyyatına toxunduğunu dərk etmir?***

- AXCP sədri öz ”facebook” statusunda hakimiyyətə sual ünvanlayıb ki, bəs kapitulyasiya olmuşdu, bəs münaqişə bitmişdi, o zaman niyə belə oldu, niyə təxribat baş verdi? - Bu sual həqiqətən debilcə verilmiş bir sualdır. Və ya Əli Kərimli yəqin elə zənn edir ki, kapitulyasiya olanda, kimsə qələbə çalanda düşmən dönüb olur mələk. Ya da təxribatlardan tam sığortalanırsan. Varmı belə şey? Mümkündürmü belə şey? Ağıl varmı səndə, ay Əli Kərimli? Nə danışdığının fərqindəsənmi? Əvvəla, təxribatı biz eləməmişik, ermənilər edib. Yəni, Əli Kərimlinin əzizləri, dostları və doğmaları. Elə bu səbəbdən də AXCP sədri sualı gedib ərk elədiyi ünvana, erməni qardaşlarına versin ki, nə məsələdi? İkincisi, təxribat olanda neynəməli idik? Erməni güllə atırsa, hücuma keçirsə, əvəzində onlara gül-çiçəkmi göndərmək lazım idi, yoxsa nə? Nazirlik də bəyanatında deyir ki, gecə saatlarında düşmənin diversiya qrupunun qəfil hücumu olub. Belə olan halda Əli Kərimli nə təklif edir? Hansı addımlar atılmalı idi? Hər halda həmin diversiya qrupunun üzvlərini öpüb-qucaqlayası deyildik və yeganə yol döyüşmək idi. Azərbaycanın qəhrəman əsgərləri də ən mükəmməl şəkildə döyüşüb, düşmənin cavabını verib, bütün şəhidlərimizin qisası alınıb.

***- Təbii ki, heç kim istəməz ki, balalarımız şəhid olsun.***

- Haqlısınız kim istəyər ki, cavan-cavan igidlər həyatdan köçsün? Heç kim! Prezident İlham Əliyev 44 günlük müharibədə də canlı itkinin qarşısını almaq üçün hər şey etdi, əsgərlərimizi, qəhrəmanlarımızı qorumaq üçün Dövlət Başçısı və Ali Baş Komandan kimi üzərinə düşən bütün vəzifələri, öhdəlikləri ləyaqətlə yerinə yetirdi. Amma Əli Kərimli elə danışır, sanki bu hakimiyyət, bu iqtidar vecsizdir və şəhidinə, əsgərinə biganədir. Elə deyil axı. Kərimli özü də gözəl bilir ki, proseslərin dərinində hansı mətləblər var, əsas məğz nədir, səbəb nədir. Amma bütün bunları bilə-bilə yenə riyakarlıq edir, acıq çıxır, namərdcə statuslar yazır, monitorun arxasında gizlənir. Və adını da qoyub ana müxalifət. Belə müxalifətçilikmi olar? Olmaz! Çünki bunun adı müxalifətçilik deyil, fürsətcillikdir, nadanlıqdır, vicdansızlıqdır!

***- Müxalifətin eyni qarayaxma kampaniyasını aparması onların vahid mərkəzdən idarə olunduqlarını söyləmək olar?***

- ”Ruh-müxalifətçi” - Arif Hacılı yay yuxusundan ayılıb və birdən yadına düşüb ki, partiya sədridir. Ardınca da ələkçinin qıl vereni obrazında bir-iki cümlə qırıldadıb, status yazıb, hakimiyyətdən izahat tələb edib, hesabat istəyib. Və güman ki, yazıb, sonra yenə yatıb. Nə deyim. Göydən yerə həqiqətən daş enməlidir, kubik ələnməlidir. Çünki Arif də danışır. Üstəlik, yekə-yekə danışır. Ayrıca, hələ də öz başqan kabinetində otura bilmədiyi halda (İsa Qəmbər onu ora buraxmır, özü əyləşir həmin kabinetdə) hakimiyyətdən hesabat istəyir. ”Mən də ortalıqda varam” havasına girir. Oysa, adama deyən lazım ki, ay Arif, sən get partiya bileti biznesinlə məşğul ol, pulunu qazan, ana müxalifətçi ola bilməsən də xalaoğlu müxalifətçiliyini elə, ta nə bilim, İsa Qəmbərin ”papka”sını daşı. İqtidarı sorğulamaq sənin başının ölçüsündə olan icraat növü deyil axı. Ən nəhayət: Qarabağı satanlar Qarabağı geri qaytaranları ittiham edə bilməz. Heç nədə! - bunu da qulağında sırğa elə, saxla! Hə, bir də unutma: bu dövlət, bu hakimiyyət, bu iqtidar öz əsgərini və torpağını səndən ən az 100 qat daha artıq sevir. Əmin ola bilərsən.

***- Xaricdəki "söyüş müxlifət" də daxilimizdəki müxalif ünsürlərə xas fikirlər səsləndirirlər.***

- Bəli, Qənimət Zahid Əli Kərimliyə züy tutub. O da öz aləmində vurub-kəsib. Ən əsas sualı isə bu olub ki, görəsən səlahiyyətlilərdən birinin yaxını döyüşdə iştirak edibmi? Həmin suala mən cavab verim: Bəli, edib. Hətta şəhidlik zirvəsinə ucalan da var. Amma biz sizlər kimi əsgəri, vətəndaşı firqələrə ayırmırıq, hakimiyyət və qeyri-hakimiyyət bölgüsü etmirik. Əsas da söhbət vətənin taleyindən gedəndə. Amma illah ki, Qənimət Zahid bu sualı vermək ehtiyacı duyub, o zaman düşünürəm, ilk öncə özünə və lideri Əli Kərimliyə ünvanlanmalı idi ki, övladları haradadır, nə işlə məşğuldur və niyə ölkədən qaçıblar? Cavabı varmı həmin sualın? Yox, əlbət. Ona görə heç olmasa abıra kor olub susmaq lazımdır. Hər şeyi hesablamaq lazımdır. Danışanda azərbaycanlı kimi danışmaq lazımdır. Zatulin kimi yox!

***Gülyana***

# “Xəyanətkarları ifşa etməli, öz adı ilə çağırmalıyıq”

”Xarici və daxili düşmənlərimizə, xəyanətkarlara qarşı xalqın bir yumruq kimi birləşməsi gərəkdir. Bizim işimiz haqqdır, biz torpaqlarımızın bütövlüyünü istəyirik, BMT-nin sənədlərində təsbit olunmuş sərhədlər çərçivəsində suveren hüquqlarımızın, ərazi bütövlüyümüzü bərqərar olmasına çalışırıq. Bu yolda kim olursa olsun, hansı güclər gəlirsə gəlsin milli maraqlarımızdan geri duran deyilik”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.

Deputat bildirib ki, bütün bunlara baxmayaraq daxildəki bir sıra ünsürlər Azərbaycana dil uzatmağa başlayıblar: ”Özünü ”ana müxalifət” adlandıran, əməlləri xalqın maraqları ilə daim ziddiyyət təşkil edən, erməni dəyirmanına su tökmək peşəsini davam etdirən, Azərbaycanın əleyhinə atdığı addımlarla məşhurlaşan Əli Kərimli, özünü beynəlxalq ekspert kimi erməniपərəst dairələrdə tanıdan və əsasən erməni mətbuatının ”dəqiq mənbə” olaraq daim istinad etdiyi Altay Göyüşlü, xaricdə oturub sosial şəbəkələr vasitəsilə Azərbaycana, onun rəhbərliyinə ermənilərin belə deyə bilməyəcəyi yalanlar tirajlayan, milli hissiyatımızla oynayan, daha çox ”söyüş mühacirləri” adı ilə tanınan ünsürlər ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar. Əli Kərimlinin də, Altay Göyüşovun və digər yaramazların apardığı təbliğatla bu gün İrəvanın küçələrində Azərbaycana qarşı hədyanlar səsləndirən ermənilər arasında heç bir fərq yoxdur. Hər ikisinin fikirləri yanlış, qərəz, xəyanət üzərində qurulub. Altay Göyüşov Azərbaycanın Ermənistan silahlı qüvvələrinin təxribatçı əməllərinə qarşı apardığı əməliyyatı təcavüz adlandırırsa, bunu erməniden nə fərqi? Əgər Əli Kərimli Azərbaycanın Qarabağ separatçılarına, təcavüzkar Ermənistana olan münasibətini insan haqlarının pozulması kimi yozursa bu şəxsin Azərbaycanda yaşamağa, hətta müxalifət adından danışmağa haqqı çatırmı? Təəssüf ki, uzun illərdir erməni lobbisinin pulu ilə bəslənən, onların sifarişlərini yerinə yetirən manqurt müxalifət nümayəndələri hazırda da öz kirli, murdar əməllərindən əl çəkirmirlər. AXCP sədri Əli Kərimli və onunla eyni cinahda yer alan Cəmil Həsənli, Tofiq Yaqubov, Qənimət Zahid kimi riyakarlar düşmənə dəstəklərini nümayiş etdirirlər. Azərbaycanın haqlı davasına kölgə salmağa və ara qarışdırmağa heç kimin haqqı yoxdur. Bu, xalqa və dövlətə qarşı düşmənçilikdir. Belə mövqedə olanlara qarşı mübarizəmizi daha da gücləndirməliyik”.



ŞƏRH

# Zamir Karajanov: KTMT ölkələri İrəvanın müraciətinə reaksiya verməkdə maraqlı deyil

**Sentyabrın 12-nə keçən gecə Ermənistan silahlı qüvvələri üçtərəfli Bəyannaməni növbəti dəfə pozaraq Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və bölmələrini müxtəlif istiqamətlərdə intensiv atəşə məruz qoyub. Azərbaycan ordusu buna hazır idi və çağırılmamış ”qonaqları” tam silahlanmış şəkildə qarşıladı.**



Ermənistan növbəti dəfə hərbi səriştəsizliyini nümayiş etdirərək ənənəvi üsullara əl atıb, üçüncü dövlətlərin və beynəlxalq təşkilatların köməyi ilə Azərbaycana siyasi təzyiq göstərməyə çalışıb. Baş nazir Nikol Paşinyanın şikayət edə bildiyi mərkəzlər arasında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) diqqətəlayiq yer tutur. Fakt budur ki, KTMT-yə üzv ölkələr Ermənistanın özündən başqa, Rusiya, Belarus, Qırğızıstan, Tacikistan və Qazaxıstandır. İrəvanın KTMT-yə hərbi dəstək üçün müraciətinin qanunsuz olduğunu nəzərə almasaq, eskalasiyanın təşəbbüskarı olduğu və Azərbaycanla Ermənistan arasında sərhəd delimitasiya edilmədiyi üçün Bakının demək olar ki, bu hərbi blokdakı bütün iştirakçı ölkələrlə sıx və səmərəli ikitərəfli əlaqələri var. Qazaxıstan Xarici İşlər Nazirliyi artıq bununla bağlı açıqlama verib. Qazaxıstanın baş nazirinin müavini - xarici işlər naziri Muxtar Tleuberdi jurnalistlərə bildirib ki, Ermənistan-Azərbaycan sərhədində vəziyyətin gərginləşməsi fonunda Qazaxıstandan Ermənistana mümkün sülhməramlıların göndərilməsi məsələsinə baxılmayıb.

”Məsələ buna dəyməz. Sentyabrın 13-də KTMT-nin Kollektiv Təhlükəsizlik Şurasının növbədənkənar iclasında Ermənistanın baş naziri Nikol Paşinyan KTMT-yə üzv dövlətlərin başçılarına Azərbaycan və Ermənistan sərhədindəki vəziyyət barədə məlumat verib. Ümumiyyətlə, məlumat qəbul edilir. Təbii ki, biz obyektiv məlumat almaq istəyirdik, çünki hər iki tərəfdən fərqli məlumatlar gəlir. Ona görə də, ümumilikdə, dövlət başçıları qərara gəliblər ki, KTMT-nin baş katibi həmin yerə gedib, yerindəcə tam görüntü alıb və sonra dövlət başçılarını məlumatlandırsın”, - deyə Tleuberdi bildirib.

Qazaxıstanlı politoloq Zamir Karajanov ”Caliber.Az”-a müsahibəsində vurğulayıb ki, Ermənistanın KTMT-yə müraciət etməsi heç də onun xahişinin yerinə yetiriləcəyi mənasına gəlmir. ”Əslində vəziyyət göründüyündən də mürəkkəbdir. Ondan başlayaq ki, Ermənistan-Azərbaycan sərhədində konkret nə baş verdiyi hələ də bəlli deyil. Üstəlik, Bakı və İrəvan sərhədlərin delimitasiyası, demarkasiyası həyata keçirilməyənə qədər, iki dövlət arasında münasibətlərin prinsiplərini müəyyən etməli olan sülh müqaviləsi imzalanmayana qədər ölkələr arasında vəziyyət gərgin olaraq qalacaq. Əsas odur ki, toqquşmalar lokal xarakter daşımalı və genişmiqyaslı müharibəyə səbəb olmamalıdır. KTMT-nin rəsmi İrəvanın müraciətinə reaksiyasına gəlincə, təşkilat ilk növbədə baş verənlərə qiymət verməlidir. Digər şeylərlə yanaşı, başqa dövlətə qoşun göndərmək çox baha başa gələn bir işdir. Silahlı insidenti lokallaşdırmaq daha asandır. İşçi qrupu, (o cümlədən xarici işlər nazirlikləri səviyyəsində) yaradılmalı və həmin Azərbaycanla müzakirə olunmalıdır”, - qazaxıstanlı ekspert hesab edir.

Bundan başqa, Z.Karajanov hesab edir ki, Bakıda toplanmış inam kapitalını da nəzərə almaq lazımdır.

”Axı Rusiya, Qazaxıstan və digər KTMT ölkələrinin Azərbaycanla yaxşı, işlək əlaqələri var. Və bu etimad səviyyəsi Azərbaycan rəhbərliyi ilə belə məsələləri müzakirə etməyə imkan verir. Bildiyiniz kimi, Ermənistandan başqa KTMT-yə üzv olan bütün ölkələrin Azərbaycanla ticarət-iqtisadi əlaqələri var, ikitərəfli münasibətlərdə qarşılıqlı investisiyalar və müəyyən həcmdə ticarət var. Yəni, bütün bu qarşılıqlı fəaliyyət nöqtələri bu dövlətlərin yalnız Ermənistanın bəyanatı əsasında, hətta KTMT çərçivəsində belə Azərbaycana qarşı hərəkət etsələr zərər çəkəcək. Prinsipcə, indi heç kim İrəvanın bəyanatına reaksiya verməkdə maraqlı deyil”, - həmsöhbətimiz fikrini yekunlaşdırıb.

***Elçin***





**Cəmi altı hərfdən ibarət, lakin səslənməsində bütün dünyaya sığan məfhumdur torpaq. Dünyadır, dünyadakı neçə-neçə Vətəndir, məmləkətdir, yurddur, odocaqdır, el-obadır, ilk mənzilimiz, son mənzilimizdir torpaq... Dünyaya gəlib ilk qədəmlərimizi basdığımız yerdir torpaq. Üzərində ev tikib binə olduğumuz yurddur torpaq. Hər gün milyonlarının addımı sinəsinə məlhəm olan, yadını, doğmasını çox yaxşı tanıyan bənzərsiz varlıqdır torpaq. Torpağa bu qədər sevda nədir bizdə? Sözsüz torpaqdan yaranmışıq, bu, o səbəbdəndir. Torpaqsız nəfəs ala bilmirik. Torpaqsız yox kimiyik...**

# Torpaq - Vətən, Vətən - torpaq!

## Torpaq anadır

Ana torpaq, ana Vətən... Bu sözlər çox tez-tez işlənir dilimizdə. Deməli, ana, torpaq, Vətən-hər üçü eyni mənanı, eyni doğmalığı ehtiva edir özündə. Bu səbəbdən də anamız bəzən torpaq, bəzən Vətən olur.

Torpaq anadır, bəli. Çünki ana qədər mehribandır, övladını qorumaq üçün mübarizəyə qatılandır, milyonların içərisində balasını tanıyandır. Torpaq anadır, bizi qoynuna alan, bəzən laylamızı çalan, nəfəsini, ətrini ciyərlərimizə çəkdiyimiz doğma anadır.

Torpaq doğrudan da anadır... Bizi bir anamız, bir də torpaq alır qoynuna. Bəzən anamız bizə yetişincə torpaq analıq edir bizə. Müharibələrdə gördüyümüz kimi. İkinci Vətən Müharibəsinin sazaqlı-soyuqlu 44 günündə erməni ilə torpaq mübarizəsində olan minlərlə övladlarımızın torpaq anaları yanlarında idi. Onların 30 il sonra Qarabağa gəlişini duymuşdu. 30 il qollarını özünə sarıb bükülmüş, küsüb yaşılını, gül-çiçəyini gizlədən torpaq bir payız günü bahar ömrünə qayıtmışdı. Açmışdı sinəsini doğmalarına, çünki onları addımlarından, qoxularından tanımışdı. Analıq edirdi əsgərimizə. Alırdı onları qoynuna, mühafizə edirdi, yorulub bir çimir edəndə başlarının altına yastıq olurdu. Sinəsi ana qucağı tək rahatlıq verirdi övladlarımıza.

Ondan-torpaqdan ötrü yollanmışdı minlərlə oğullarımız Qarabağa. Vətən adlı sevdamızın çağırışıyla minlərlə oğlunu almışdı sinəsi üstünə torpaq. 30 il işğal altında, düşmən tapdağı altında qüruru əzilən torpaq doğmasının pişvazına çıxmışdı. Ordumuz addım-addım irəlilədikcə 30 ilki qara yaylığını çıxarıb al-əlvan kəlağayı salırdı başına torpaq. Qoruyurdu övladlarını. Lakin müharibənin qanunları qanundur axı... İtkisiz, şəhidsiz, qazisiz, yaralısız müharibə olmur. Bombardmanlar torpağın bağrını yarırdısa da o, övladını düşünürdü, ona bir şey olmasını istəmirdi. Lakin bu mümkün deyildi. Anamızın-torpağın gözləri önündə şəhid verirdik hər saat. Torpaq anamız alırdı bizi qoynuna, ahnalə edirdi, lay-lay çalırdı şəhidimizə. Yaylığını salırdı onun yaraları üzərinə. Biz anamıza yetişənədək torpaq anamızın gözlərindən sel axırdı yoxluğumuz üçün.

Müharibələr torpaq anamızın ən böyük qəmi-kədəridir. Çünki qoynundaca balasını itirir. Gözləri önündəcə övladını şəhid verir. Müharibələr də ki, əsrdən artıqdır ki, Azərbaycanın alın yazısıdır. Çünki erməni adlı qonşuluqdan kənar olmuş qonşumuz var. Gözü torpağımızda, iştahası sərvətlərimizdə olan qonşumuz var. Bu səbəbdən də torpaq müharibə, qırğın-qiyamət, güllləbaran, qandır ki, çəkir ciyərlərinə. Övladını itirir, lakin dik durmağı bacarır. Çünki o, bir anadır, analarımız kimi qürurlu anadır.

## Torpaq şərəf, namusdur

Bəli, torpaq anamız kimi şərəfimiz, namusumuzdur. Biz ana-bacımızı necə göz bəbəyi kimi qoruyuruqsa, mühafizə ediriksə, torpaq da bizim üçün onlarla bir anlamdadır. O da bizim namusumuzdur. Elə bu səbəbdən də torpaqlarımız işğal altında qala bilməz. 30 il öncə şərəfin, namusun hərfi mənasını yetərincə dərk etməyənlərin qanlı, haram, murdar əlləri ilə satıldı torpaqlarımız yağı düşmənə. 30 ildi biz onların yanlış hərəkətlərinin utancını yaşayırdıq. Lakin 30-ların əvvəlində bu torpaqları geri almaq üçün heç bir gücümüz yox idi. Həmin səriştəsizlərin sayəsində ölkəmiz iqtisadi böhran içərisində çabalayırdı. Milli ordumuz yox idi. Müstəqilliyimiz bərpa etdiyimiz üçün sovet imperiyasının ən qatı düşməninə çevrilmişdik. Axı onlar 15 müttəfiqdən biri kimi, bizim də müstəqil olmağımızı, sərvətlərimizin əllərindən çıxmasını istəmirdilər. Elə buna görə də başımız olmazın bəlalarını çəkdi.

Torpaqlarımız 1928-ci ildə olduğu kimi planlı şəkildə anası Azərbaycandan qoparıldı. Xalq şərəf, namus savaşına qalxdı. Ölkədə Birinci Vətən Müharibəsi də elə bu səbəbdən başlandı. Lakin ordumuzun zəif təchizatı, rəhbərlik tərəfindən heç bir köməkliyin göstərilməməsi nəticəsində məğlub olduq. 20 faizdən çox torpağımızı itirməli olduq. Minlərlə şəhid verdik, minlərlə övladımız sağlamlığını itirib qazi kimi müharibədən qayıtdı, lakin torpaqlarımız da düşmənin əlində qaldı.

O vaxtdan 2020-ci ilə kimi bu torpaqların qaytarılması üçün əvvəlcə ümummilli liderimiz, daha sonra isə ulu öndərin siyasi və mənəvi varisi, ölkəmizin rəhbəri cənab İlham Əliyev tərəfindən beynəlxalq səviyyəli tədbirlər həyata keçirildi. Bütün dünyaya erməni haqsızlığı, Azərbaycan həqiqətləri çatdırıldı.

*Ardı Səh. 12*



# Torpaq - Vətən, Vətən - torpaq!

Əvvəli Səh. 11

Bütün beynəlxalq təşkilatlar qarşısında torpaqlarımızın işğalı ilə bağlı və onun həll olunması üçün məsələ qaldırıldı. Bütün dünya haqq səsimizə səs verməyə çağırıldı. Səsimizi eşidənlər oldu, həqiqətin kimin tərəfində olduğunu bilənlər oldu, lakin məsələnin həlli üçün qarşıya çıxan olmadı.

Ölkəmizin rəhbəri Qarabağ probleminin sülh yolu ilə həll olunmasına çalışdı. Çünki tarixə müraciət edilsə, görünər ki, Azərbaycan heç vaxt müharibə başlayan ölkə olmayıb. O, həmişə qonşuları ilə sülh, əmin-amanlıq şəraitində yaşamağa, onlarla qarşılıqlı münasibətlər yaratmağa çalışıb. Bu üzdən də torpaqlarımıza haqsız yerə sahib çıxmaq istəyənlərin də sakitliklə buradan çıxmasına çalışdıq. Lakin nəticəsi olmadı. Belə olan şəraitdə isə hərb yolu ilə torpaqlarımız geri alınmalı idi. Çünki bunu ölkəmizin başçısı bütün beynəlxalq təşkilatlar, dünya qarşısında bəyan etmişdi.

30 ildə torpaqlarımızın böyük cidd-cəhdlə geri qaytarılmasının başlıca səbəbi isə torpağın bizim üçün şərəf məsələsi, namusumuz olması idi. Buna görə də torpağımız düşmən əlində qala bilməzdi.



## Torpaq üçün qan tökmək şərəfdir

İki il öncə ermənilər artıq yeni torpaqlar işğal etmək həvəsinə düşmüşdülər. Bu barədə 2020-ci ilin 27 sentyabrında-İkinci Vətən Müharibəsi başlanan gün dövlətimizin başçısı da xalqa müraciətində bildirmişdir: Ermənistan bu təxribatı törətməklə hansı məqsədi güdürdü? İlk növbədə Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər. Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur, bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir.

Hələ 2020-ci ilin aprel ayında düşmən bu planını Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində həyata keçirməyə başlamışdı. Artilleriya atəşi nəticəsində hərbçilərimiz və bir mülki şəxs həlak olmuşdur. Burada ilk olaraq azərbaycanlı hərbçilərin həlak olması bu münaqişəni məhz ermənilərin başladığını təsdiq edən amildir.

Sözsüz ki, Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr irəliyə gedə bilmədi. Ölkə başçısı cənab İlham Əliyevin dediyi kimi: Düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı. Mən bu barədə demişəm, bir daha demək istəyirəm, əgər bizim istəyimiz olsaydı, hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdır.

Avqust ayında da ermənilər növbəti təxribata əl atdılar və bu dəfə də yerlərində oturduldular. Sentyabrda münaqişələr bir daha başlayandan isə artıq onları birdəfəlik susdurmağın vaxtı çatdığını ölkəmizin Prezidenti, Ali Baş Komandanımız əmr etdi və İkinci Vətən Müharibəsi başlandı. 44 gün çəkən bu müharibədə erməni ordusu demək olar ki, darmadağın edildi, çoxsaylı itki verdilər. Sonda məğlubiyyətləri ilə barışdılar və kapitulyasiya aktını imzaladılar. Azərbaycan 30 il əsarətdə qalan torpaqlarını er-



məninin caynaqlarından qoparıb aldı və Zəfər çaldı.

Torpaqlarımızın 30 illik susuzluğu şəhid qanı ilə təmin olundu. Minlərlə şəhidimizin qanı ilə suvarıldı bu torpaqlar. Yenidən cana gəlmək üçün suvarıldı, bizim olmaq üçün bu al qanı ciyərlərinə çəkdi. Torpaq dil açdı, dedi ki, torpaq, Vətən üçün şəhid olmaq şərəfdir. Torpağı düşməndən almaq şərəfdir. Balalarımızın yoxluğuna torpağın bu sözləri ilə təsəlli tapdıq. Qoy torpaq düşməndə qalmasın, namusumuz, şərəfimiz xilas olsun, dedik. Qoy balalarımız bu yolda şəhid olsun, dedik və başımızı dik tutduq, əyilmədik. Zəfərimizlə qürur duyduq.

## Düşmən torpaqlarımızdakı məğlubiyyəti ilə barışa bilmir

2020-ci ilin 10 noyabr Bəyanatı ilə torpaqlarımızın bir qismi də azad olundu. Bəyanatın digər maddələrində nəzərdə tutulan məsələlərdən isə artıq iki ildir ki, düşmən boyun qaçırmağa çalışır. Ermənistanın bu hərəkətləri regionda sakitliyin, əmin-amanlığın bərpa olunmasını və kommunikasiyaların açılmasını istəmədiklərini sübut edir ki, bunun da səbəbləri var.

Sentyabrın 12-də Azərbaycan-Ermənistan sərhədinin Laçın, Kəlbəcər və Zəngilan istiqamətində başlanan gərginlik Ermənistanın revanşist siyasətinin, mövcud vəziyyəti öz xeyrinə dəyişdirmək cəhdinin nəticəsidir. Artıq günlərdir ki, yuxarıda adıçəkilən istiqamətlərdə ordumuzun mövqeləri atəşə tutulur. Maraqlıdır, görəsən iki il öncə ordusu tamamilə tar-mar edilən Ermənistan yenidən özünə necə gəldi ki, yeni təxribatlara əl atmağa başlayıb? Sözsüz ki, yenə də havadarlarının dəstəyi onların meydana gəlməsinə səbəb olub. Yoxsa uzun illər lazım idi ki, onlar dirçələ bilsinlər.

Lakin ordumuzun layiqli cavabı nəticəsində düşmənin texnikası yenə də darmadağın edilib və çoxsaylı itki verib. Bütün bunlara baxmayaraq düşmən məğlubiyyətini qəbil etmək istəmir, sanki hansısa bir möcüzəyə inanırmış kimi münaqişələri davam etdirməyə cəhd göstərir.

Ermənistanda hazırda vəziyyət çox gərgindir. İnsanlar ayağa qalxıb haqsız yerə övladlarının ölümünə səbəb olanlardan haqlarını tələb edir, başlarına nə üçün bu oyunların açılmasının izahını istəyirlər. Bir qrup qızışdırılıb ortalığa salınanlar isə təxribatdan əl çəkmir, başqasına məxsus torpaqlara olan iştahalarından vaz küçə bilmirlər.

Lakin anlamaq istəmirlər ki, bu dəfə də məğlubdurlar. Onların özlərinə bir daha gəlməsi üçün yenə də illər lazımdır. Çünki ordumuz tərəfindən lazımi cavab və dərs alıblar.

## Torpaq - Vətən, Vətən-torpaq...

Torpaq Vətəndir, Vətən isə torpaqdır. Bu bir-birinə qırılmaz tellərlə bağlı olan iki varlıq hər zaman müdafiəsinə oğulları səsləyir. Vətən sevdalı oğullar isə onların səsinə səs verir, daim müdafiəsində dayanır. Çünki Vətənsiz, torpaqsız həyat yoxdur. Olsa, nə mənası olar ki...

Torpaq üzərində qurulan Vətəndir bizi yaşadan. Ona olan sevgimiz, sevdamızdır bizi yaşadan. Canımızı fəda edib varlığını əbədi görmək istədiyimiz Vətənsiz yaşamaqmı olar?

Budur, sentyabrın 12-dən ermənilərin başladıqları təxribatlarda bu günə olan rəsmi məlumata əsasən 71 şəhidimiz var. Onların hər birinin ürəyində Vətən boyda torpaq eşqi var. O torpaq ki, onların namusu, şərəfidir. O torpaq ki, onsuz hər birimiz Vətənsiz qalarıq. Ona görə də bu gün hər birimiz ölməyə hazırıq. Ta ki Vətənimiz var olsun, ta ki torpaqlarımız tam olsun.

Vətən-torpaqdır, torpaq-Vətəndir. Biz bunlar olmadan yaşaya bilmərik. Odur ki, son nəfərimizədək, son qanımızadək Vətənlə, torpağımızlayıq. Düşmən bu sevgimizlə yerində oturdulacaq. Məğlubiyyətini ən sonda anlayıb geri çəkiləcək. Bütün dünya anlayacaq ki, torpaq, Vətən anlayışı bizim üçün müqəddəsdir. Bu müqəddəslik bu xalq var olduqca eyni müqəddəslikdə qalacaqdır.

Bu gün biz bir-birimizə nümunə olaraq bir yola çıxmışıq. Səfəvilər dövlətindən sonra torpaq məsələsinə ilk dəfə bizim nəsil toxunub. Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə qalxıb. Biz Ali Baş Komandanımızın, "dəmir yumruğ"un ətrafında elə birləşmişik ki, heç kim bizə güc gələ bilməz. Biz bir yola çıxmışıq. Bu yolun adı Zəfər yoludur. Zəfər yolunu sonadək getmək isə hər birimizin şərəf, namus işidir.

***Mətanət MƏMMƏDOVA***

## "Mövqeləri düşmənin yanaşmasından heç nə ilə fərqlənmir"

"Azərbaycan hər zaman Qafqazda sülhə dəstək verən ölkə olaraq region ölkələrinin ərazi bütövlüyü və suverenliyini qarşılıqlı tanınması çərçivəsində qonşuluq siyasətinə üstünlük verir. Avqustun 31-də Brüsseldə baş tutan üçtərəfli görüşdən sonra Ermənistanın sentyabrın 13-dəki təxribatı qarşı tərəfin sülhə hazır olmadığını bir daha göstərdi. Təbii ki, Azərbaycan ordusu bu təxribatın qarşısını almalı idi və şanlı ordumuz düşmənin atəş nöqtələrini zərərsizləşdirdi. Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər ordumuz düşmən



təxribatlarının qarşısını alaraq dövlət sərhədimizdə vəziyyəti tamamilə nəzarətdə saxlayır". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Vüqar Bayramov deyib.

Onun sözlərinə görə, təəssüf ki, bəzi beynəlxalq qurumlar, hətta bir sıra dövlətlər Ermənistanın təxribatını Azərbaycanın təcavüzü kimi qeyd edirlər: "Öncə də qeyd etdiyimiz kimi, İkinci Qarabağ müharibəsi zamanı nəinki təmas xəttində, hətta döyüş bölgələrindən uzaqda yerləşən Gəncə, Bərdə kimi şəhərlərimizi raket atəşinə tutan Ermənistanı bir dəfə də olsun ittiham etməyənlər indi döyüşdə məhv edilən er-



məni hərbiçilərini "günahsız mülki sakinlər" kimi təqdim etməkdən belə çəkinmirlər. Ən çox təəssüf doğuran məqamlardan biri də, təbii ki, yalnız erməni lobbisinin təsiri altında olan qurumların deyil, bir sıra Azərbaycanlı "siyasətçilərin" də dövlətimizi, hətta təcavüzkar ölkə kimi təqdim etməyə cəhd göstərməsi və milli birliyə xələl salmağa çalışmasıdır. Belə fikirlər, əslində, Azərbaycanın haqq işinə kölgə salmaqla yanaşı, ölkəmizlə istər açıq, istərsə də pərdəarxası mübarizə aparan bəzi dövlətləri hərəkətə gətirir.

Ermənistanın feyk xəbərlərinə istinad edərək ölkəmizə təzyiq etməyə çalışan dövlətlərin olduğu və milli maraqlarımızın qorunmasının böyük əhəmiyyət daşıdığı belə bir həssas zamanda məhz bu qüvvələrin Azərbaycanın istəməyənlərin yanında durması bir daha onların xəyanətkar niyyətlərini göstərir. Onların mövqeyi düşmənin yanaşmasından heç nə ilə fərqlənmir. Əksinə, öz siyasi maraqlarına bəzən daha "irəli" gedərək vətəndaşlarımız arasında ruh düşkünlüyü yaratmağa cəhd edirlər. Aydındır ki, bütün bunlar mənasız və uğursuz cəhdlərdir. Xalqımız Ali Baş Komandanına və öz ordusuna inanır. Məhz bu inam milli birliyimizi möhkəmləndirir və bizi zəfərlərə daşıyır.

Bütün qarayaxmalarına və düşmən ölkələrin dəyirmanlarına su tökmələrinə baxmayaraq, 44 günlük Vətən Müharibəsində olduğu kimi, xalqımız yenə də Ali Baş Komandanın ideyaları ətrafında sıx birləşib. Azərbaycanı ittiham edənlər unutmasınlar ki, ölkəmiz Ali Baş komandanın rəhbərliyi altında bütün strateji hədəflərə çatır və birlik bizi yeni-yeni zəfərlərə aparacaq".

***Arzu Qurbanlı***

# Ana südü, yoxsa əlavə qida?

**Körpəni qidalandırmaqda ana südü və ya əlavə qida seçmək, yeni anaların verəcəyi ən böyük qərarlardan biridir. Ana südü körpələr üçün ən yaxşı seçimdir. Belə ki, bu, infeksiyalara qarşı müdafiəni gücləndirir, allergiyanın qarşısını alır və bəzi xroniki xəstəliklərdən qoruyur.**

İlk 6 ayda yalnız ana südü, daha sonra isə ən az 12 ay ana südü ana və körpə istəsə daha uzun müddət davam etdirilməlidir.

Ana südü, şübhəsiz ki, körpələr üçün ən yaxşı qida seçimi olsa da, bu südlə qidalandırmaq hər qadın üçün mümkün olmaya bilər. Ana südü verə bilməyən və ya bunu istəməyən analar üçün alternativdir. Ana südü körpələrin böyüməsi və inkişafı üçün vacib qidaları ehtiva edir.

Bəzi analar ana südü verməsələr, körpələri ilə əlaqə qura bilməyəcəklərini düşünürlər. Ancaq həqiqət budur ki, sevən analar uşaqları ana südü ilə qidalandırmasalar da, həmişə xüsusi bir əlaqə qura bilirlər.

Körpənizi ana südü və ya formula ilə qidalandırmaq şəxsi qərardır. Hər iki üsulun müsbət və mənfi tərəflərini ölçmək sizin və körpəniz üçün hansının ən yaxşı olduğuna qərar verməyə kömək edə bilər.



**Ana südünün faydaları:**

İnfeksiya və digər xəstəliklərlə mübarizə: Ana südü ilə qidalanan körpələrdə daha az infeksiya olur və süni qida ilə qidalanan körpələrə nisbətən daha az xəstələnirlər. Ana südü zamanı antikorlar və digər mikroblarla mübarizə aparan amillər anadan körpəyə keçir və immunitet sistemini gücləndirir. Bu, körpənin aşağıdakı infeksiyalardan bəzilərini alma şansını azaldır:

- qulaq infeksiyaları
- ishal
- tənəffüs yollarının infeksiyaları
- meningit

Ana südü də körpəni aşağıdakılardan qoruyur:

- allergiya
- astma
- diabet
- piylənmə
- qəfil körpə ölümü sindromu
- Ana südü vaxtından əvvəl doğulmuş körpələr üçün xüsusilə faydalıdır.

Qidalanma və həzm asanlığı: Körpələrin həzm sistemi üçün mükəmməl qida kimi tanınan ana südünün komponentləri - laktoza, zülal (zərdab və kazein) və yağ - yeni doğulmuş körpə tərəfindən asanlıqla həzm olunur.

Ana südü ilə qidalanan körpələr süni qida ilə qidalananlara nisbətən həzm problemi ilə daha az qarşılaşırlar. Ana südü daha asan həzm olunduğu üçün ana südü qəbul edən uşaqlarda ishal və qəbizlik problemlərinə daha az rast gəlinir.

Ana südünün tərkibində yeni doğulmuş uşağın ehtiyac duyduğu bir çox vitamin və mineral var. Yeganə istisna D vitaminidir. Əlavə qidalar ana südü ilə tam uyğun gəlmir. Bəs niyə? Süd hər ananın körpəsi üçün istehsal etdiyi canlı bir maddə olduğu üçün heç bir fabrikdə eyni proses həyata keçirilə bilməz.

SİA mövzu ilə bağlı araşdırma edərək pediatrların fikirlərini öyrənib:



**Mütəxəssis pediatr Yüksel Hüseynli:** "Uşağın qidalanmasında ana südünəmi yoxsa əlavə qidayamı üstünlük veriləcəyi yeni ana namizədlərinin ən çətin qərarlarından biridir.Bunun üçün ana südü və hazır qidaların arasında fərqi,göstəriş və əks göstərişləri bilmək vacibdir.

İlk öncə qeyd edim ki,uşağın həyatının ilk 6 ayında yeganə qəbul edə biləcəyi qida ana südüdür.Yenu doğulmuş uşağın mədəsi gilas dənəsi boyda,3 günlük uşağın mədəsi qoz boyda,1 həftəlik uşağın mədəsi ərik boyda,1 aylıq uşağın mədəsi isə bir yumurta boydadır.Yəni əgər ananın südü tamamilə kəsilməyibsə və əks göstəriş olan bəzi xəstəliklər istisna olmaqla ana südü uşağa bəs edir.Hətta su verməyə belə ehtiyac yoxdur.

-Ananın QİÇS xəstəsi olmağı

-Anada aktiv vərəm olmağı

-Süd vəzilərində herpes səpgilərinin olmağı

-Anada Sitomegalovirus infeksiyası olmağı əks göstərişdir.

Digər hallarda, hətta anada Hepatit B,C və Covid infeksiyaları olmağı da əks göstəriş deyil.

Ana südü uşağın bağırsaq mikroflorası formalaşmağında böyük rol oynayır. Ana südü içən uşaqlarda köp sancıları daha az olur.Uşaqlar infeksion xəstəliklərə daha az yoluxur.

Ana südü verə bilməyən və ya əmizdirmək istəməyən analar üçün hazır qidalar sağlam alternativdir.Tərkibin uşağın böyümə və inkişafı üçün lazımlı vitamin və minerallar olur.Əlavə qidalar ana südünə görə çətin həzm olunduğuna görə adətən daha az sıxlıqla qidalanma tələb olunur.İşləyən analar üçün daha rahat alternativdir.

Lakin unutmayaq hər uşaq ,hər orqanizma fərqli olduğu üçün hər südün tərkibi də fərqli olur.Heç bir hazır qidanın tərkibini ana südünün tərkibinə birə -bir bənzətmək mümkün deyil.Ana südünün tərkibindəki anticisimlər(yəni bədənimizə daxil olan mikroblara,viruslara qarşı yaranan zülaldır) uşağı müxtəlif infeksion xəstəliklərdən qoruyur.

Ana südü hər zaman əlimizin altında olan,ideal temperaturda və əlavə ləvazimat tələb etmədən uşağın ehtiyacını ödəyə bilir.Heç bir maddiyyat tələb etmir. Hazır qidalar isə mailiyyət baxımından ailənin büdcəsinə böyük ölçüdə təsir edir.

Hazır qida veriləcək qabların daima təmiz saxlanılması vacibdir,əks halda uşaqda müxtəlif infeksion xəstəliklər yarana bilər.Hazır qida ilə qidalanan uşaqlarda köp və qəbzliyə daha çox rast gəlinir.

Nəticə etibarilə əgər ana südü verməyə həkim göstərişi ilə xüsusi bir qadağa yoxdursa ailə ana südü və hazır qidaların fayda zərər nisbətini düşünüb ilk öncə uşaq üçün ən faydalı olanı,sonra isə öz büdcələrinə uyğun olanı seçməlidirlər".



**Pediatr Nigar Abdullayeva:** "Bilirik ki, uşaq üçün ən unikal qida ana südüdür. Ana südü əvəzolunmaz bir qidadır.

Sırf 6 ayına kimi uşaq ana südü ilə qidalanmalıdır və ÜST-ün tövsiyələrinə görə 2 yaşına kimi ana südü ilə qidalandırılması tövsiyə olunur. Lakin 6 aydan sonra artıq ana südü uşağa yetməmədiyi, onun qidaya olan tələbatını tam ödəmədiyi üçün əlavə qidalanmaya keçilir. Lakin bəzən ana südü yetmədiyi halda, az olarsa, ana südü ilə əmizdirmələrə əks-göstəriş olarsa bu zaman, valideyn süni qidalar verməlidir.

Ana südü ilə əmizdirmələrə olan əks-göstərişlər çox azdır. Məsələn, ananın qızdırmasının olması. Bu ana südü ilə əmizdirməyə əks-göstəriş deyil, ananın hər hansısa qrip və başqa virus infeksiyası keçirməsi əks-göstəriş deyil. Ana maska taxaraq uşağını mütləq şəkildə doyurmalı və gigiyenik qaydalara riayət edərək əllərini sabunlu su ilə yuyarsa, müxtəlif dezinfeksiya edici məhlullardan istifadə edərək uşağını əmizdirməlidir. Ana südü ilə əmizdirməyə olan əks-göstərişlər çox azdır. Bunlar çox ciddi xəstəliklər ola bilər. Anada xərçəng xəstəliyi olarsa, kimyaterapiya alan dönəmdə ana südü əmizdirilməməlidir. Psixotrop dərmanlar atarsa, aktiv vərəm xəstəliyi olarsa bu cür ciddi xəstəliklər zamanı ana südü ilə əmizdirmək əks-göstəriş sayılır.

Əgər ciddi bir əks-göstəriş varsa ana südünün qəbul olunmasında və ana südü yetmirsə, uşaq normal bir çəki almırsa bu zaman süni qidalardan, smeslərdən istifadə etmək lazımdır. Smeslər adaptasiya olunmuş inək südü əsasında hazırlanır. Biri var sırf inək südünün özünü uşağa vermək ki, bu doğru deyil. Çünki onun tərkibində müxtəlif fərqli heyvani zülallar var, hansı ki, orqanizm tərəfindən rahat mənimsənilmir. Həmçinin, tərkibində olan zülallar bir sıra mikroelementlər var ki, onların səviyyəsi yüksəkdir və onlar böyrəklərdən süzülərkən ciddi problemlər yaradır, böyrəklərdə aşırı yüklənmə ola bilər. Ona görə də adaptasiya olunmuş, yəni, süni qidalardan istifadə olunur. Bunlar ana südünə yaxınlaşdırılır, orada mikroelementlərin, vitaminlərin səviyyəsi və s. ana südünə uyğunlaşdırılıb. Lakin ana südü kifayət qədər yetirsə, uşaq hər ay normal çəki alırsa heç bir əlavə qidanın verilməsinə ehtiyac yoxdur. Ana südündə mikrob var adı ilə ana südünü kəsirlər. Çünki o uşağa köp verə bilər, yəni, normada smes də yeyərkən uşaq köp ola bilər. 3-6 ayına kimi bu köp və qaz sancısının olması normaldır. Ana südü ilə qidalanan uşaq 7 dəfə böyük bayıra gedər ki, bu da yaşıl, yaxud çürüntü ola bilər. Bunlar hər hansı bir mikrobun ana südünə keçməsi anlamına gəlməz. Bu halda da ana südünü qətiyyən kəsməsinlər. Ana südü yetirsə, ciddi bir problem yoxdursa qətiyyən ana südünü kəsmək və smes istifadə etmək olmaz və uşaq doğulduqdan sonra 30 dəqiqə 1 saat ərzində anaya əmizdirmək üçün verilməlidir. Gec döşə qoyularsa təbii ki, südün gəlməsi də gecikəcəkdir".

*Ayşən Vəli*

ANALİTİK+AKTUAL

# Ermənistanın Qərb kartı: ölkə daha ağır faciələrə sürüklənir!

*Azərbaycanın isə Ermənistana təsir mexanizmləri artır və hətta yedək elementləri də mövcuddur*

**Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-ın Dövlət Departamentinin təmsilçisi Filip Rikeri qəbul edib. O da bəllidir ki, görüşdə Ermənistan rəsmiləri ilə kontaktlarda olan XİN rəhbəri və Prezidentin köməkçisi də iştirak ediblər. Bütün bunlar öz yerində, lakin sözügedən məqamda belə bir sual yaranır: axı ABŞ rəsmiləri, ümumiyyətlə isə Qərbin müəyyən siyasi dairələri nəyə görə bu qədər təlaşlıdırlar və həmin təlaşlıq hansı səbəblərdən 30 il boyunca müşahidə olunmadı? Yaxud Azərbaycanın əraziləri işğal altında qalarkən, işğalçı Ermənistan guya özü üçün təhlükəsizlik bufer zonalarını yaradıb mülki və dinc əhalimizi davamlı atəş altında saxlayarkən, kənd və qəsəbələrimizi atəşlərə məruz qoyarkən məlum dairələr nəyə görə cınqırlarını belə çıxarmayaraq işğal və terror faktlarına göz yumurdular?**









## Nikol Paşinyanın hakimiyyətdə qalması ABŞ üçün kritik dərəcədə vacib bir məsələdir

Beləliklə, Rikerin Bakıy səfəri məhz delimitasiya və demarkasiya olunmamış sərhədlərdə erməni tərəfinin təxribatları nəticəsində eskalasiyanın artdığı vaxta təsadüf etdi. Həmçinin, bundan əvvəl Dövlət Departamentinin rəhbəri Blinken də məlumat vermişdi ki, Azərbaycan və Ermənistan liderləri ilə telefon danışığı aparıb. Yəni bu, onu göstərir ki, Rikerin səfərinə qədər artıq Azərbaycan ABŞ-ın siyasi rəhbərliyi ilə fikir mübadiləsi aparıb.

Ancaq daha bir reallıq ondan ibarətdir ki, Nikol Paşinyanın hakimiyyətdə qalması ABŞ üçün kritik dərəcədə vacib bir məsələdir. Özü də Filip Riker Nikol Paşinyan Vladivostokda ŞƏT-in sammitində olduğu müddətdə Ermənistana səfər edib, nə az, nə çox - düz 3 gün İrəvanda erməni baş nazirinin yolunu gözləyib. Hətta sarkazmla ifadə etsək amerikalılar Nikolun iqtidarda qalması üçün gecələr belə yata bilmirlər, yəni bu qədər əhəmiyyətlidir. Bəs amerikalı rəsmilərin bu qədər paşinyansevərliklərinin arxasında hansı məntiq dayanır?

## Onların yeganə çıxış yolları təxribatlar törətməkdir ki, həmin faktor da onlar üçün ölümcül zərbələrlə nəticələnir

Sirr deyil ki, Paşinyan iqtidarına Ermənistan daxilində hər hansı bir təhlükə yoxdur. Belə ki, ölkə müxalifəti marginaldır, etirazçı elektorat yox səviyyəsindədir, seçicilərin demək olar ki, 50%-i nə hazırkı hakimiyyətə, nə də əvvəlki iqtidarlara inanmırlar, etibar etmirlər. Belə olan vəziyyətdə Paşinyanın hakimiyyət kreslosunu laxlada biləcək yeganə təsir qüvvəsi Azərbaycanla hərbi eskalasiyaya getdiyi zaman ağır və sarsıdıcı məğlubiyyətlərə uğraması amildir. Sonuncu hadisələr isə göstərir ki, Ermənistan ordusu qarşıya qoyulan vəzifələrinin öhdəsindən gəlməyi bacarmır. Onların yeganə çıxış yolları təxribatlar törətməkdir ki, həmin faktor da onlar üçün ölümcül zərbələrlə nəticələnir.

Bu zaman ABŞ-ın qarşısında öhdəlik dayanır - Paşinyanın hakimiyyətinə olan təhlükəmi maksimum şəkildə azaltmaq və həmin yolda iki seçim var - ya mövcud münaqişənin əyləcini basmaq, ya da Bakı ilə İrəvanı bir araya gətirmək




və sülh əldə etmək. Lakin görünən budur ki, ABŞ erməni təxribatlarının qarşısını almaq üçün göstərdiyi cəhdlərini puça uçurur və münaqişəni dondurmaq da mümkün deyil, çünki Bakının qətiyyəti və iradəsi ortadadır.

Əgər amerikalılar Ermənistana, daha doğrusu Paşinyana kömək etmək istəyirlərsə onda buyurub sülh sazişinin imzalanmasına vasitəçilik etsinlər, əlbəttə ki, ölü Minsk qrupu xaricində!

Azərbaycanın yeganə tələbi isə əldə olunmuş razılaşmaların Ermənistan tərəfindən icra edilməsidir və Bakı Vaşinqtona da bunu anlatmağa çalışır. Belə desək, əgər amerikalılar Ermənistana, daha doğrusu Paşinyana kömək etmək istəyirlərsə onda buyurub sülh sazişinin imzalanmasına vasitəçilik etsinlər, əlbəttə ki, ölü Minsk qrupu xaricində!

ABŞ rəsmiləri də artıq anlamağa məhkumdurlar ki, Qarabağ məsələsini yarıda qoyub paralel şəkildə sülh sazişi gündəminə getmək ümumiyyətlə, Azərbaycan dövlətinin maraqlarını təmin etmir. Yerdə qalan ciddi-cəhdlər isə əslində Ermənistanın vəziyyətini daha da ağırlaşdırır, habelə Paşinyanın özünü də.

## Ermənistanı 30 il ayaqda saxlayan Rusiyaya qarşı Qərb kartının oynanılması həmin faciələri artıra bilər

Nəticə etibarı ilə ABŞ bilavasitə həmin məsələlər üzərində düşünməli və qərarlarını verməlidir. Azərbaycanın isə Ermənistana təsir mexanizmləri artır və hətta yedək elementləri də mövcuddur. Yeni yüksəkliklər, məhv edilmiş texnika və canlı qüvvələr, darmadağın edilmiş hərbi infrastrukturlar - bütövlükdə isə uzun illər geriyə qaytarıla bilinməyəcək çoxsaylı itkilər!

Bütün bunların təhlilini apararkən son olan məntiq belədir: ermənistanın mövcud strategiyası və sözdə diplomatik taktikaları ölkəni yeni, hətta qarşısıalınmaz faciəyə doğru sürükləyir. İlk növbədə isə bu ölkəni 30 il ayaqda saxlayan Rusiyaya qarşı Qərb kartının oynanılması həmin faciələri artıra bilər. Bu isə başqa mövzudur və həmin mövzuya da toxunacağıq...

***Rövşən RƏSULOV***

ŞƏRH

## “Ermənistan öhdəliklərinin çoxunu yerinə yetirməyib, KTMT İrəvanı müdafiə etməyəcək”

Qondarma ”Donetsk Xalq Respublikası”nın keçmiş ”müdafiə naziri” İqor Qirkin (daha çox Strelkov adı ilə tanınır) Azərbaycan və Ermənistan sərhədində vəziyyətin gərginləşməsinə münasibət bildirib və bildirib ki, Ermənistan KTMT-yə arxalana bilməz. Strelkov yazır ki, Ermənistan-Azərbaycan münaqişəsinin kəskinləşməsi İrəvanın mövqeyinə görə qaçılmaz olub.



”Uzun müddətdir məni oxuyanlar və dinləyənlər bilirlər ki, Azərbaycanla Ermənistan arasında hərbi əməliyyatların gec-tez bərpa olunacağı hərbi əməliyyatların ”dondurulmasından” az sonra mənim tərəfimdən proqnozlaşdırılıb. Ermənistan üzərinə götürdüyü öhdəliklərin əksəriyyətini yerinə yetirməyib (təəccüblü deyil, çünki bunun, onun suverenliyinə birbaşa ziyan vurduğunu deyir) və Azərbaycan əvvəlki təslim şərtləri yerinə yetirilənə qədər Paşinyana ”təzyiq” edəcək.

Rusiya indi bunun qarşısını almaq iqtidarında deyil, çünki o özü, Ukraynadakı hərbi münaqişədə bataqlığa düşüb, bu, əlavə olaraq, bütün azad qüvvələrin cəlb olunmasını tələb edir. KTMT də Ermənistanı müdafiə etməyəcək.

Müvafiq olaraq, Türkiyə-Azərbaycan koalisiyasının nəhayət ki, Ermənistana həlledici zərbə vurmağa nail olub-olmayacağı, demək olar ki, əsasən İranın mövqeyindən, daha dəqiq desək, İran ordusunun qətiyyətlə və ”böyük güclə” ermənilərin müdafiəsinə qalxmağa hazır olub-olmayacağından asılıdır. Bununla bağlı mən özümü nəyisə proqnozlaşdırmağa səriştəli hesab etmirəm”- deyə o, Telegram kanalında yazıb.

***Elçin***

# Uşaqlarımızın məktəb ləvazimatlarını düzmü seçdik?

**Yeni dərs ili başladı, bütün valideynlər övladlarını məktəbə apardılar. Son günlərdə valideynlər təlaş və həvəslə uşaqların məktəb geyimlərini, dərs ləvazimatlarını, ayaqqabılarını almaqla məşğul idi. Hər şeyin yaxşısını, eyni zamanda, münasib qiymətə olanını almaq isə çox vaxt mümkün olmur. Bu gün məktəblərin açılışı günündə uşaqların ayağında gördüyümüz ayaqqabıların və çantaların çoxunun kimyəvi tullantılardan hazırlandığı aydın hiss olunurdu.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması” istiqaməti çərçivəsində hazırlanıb

Ayaqqabı seçimi həm zövqümüzdən, həm də sağlamlığımıza olan münasibətimizdən, bir azca da büdcəmizdən xəbər verir. Əgər çox yox, cəmi 20-30 il qabaq ayaqqabıların dəhşətli xəstəlik yaradacağı barədə danışsaydılar, bu inandırıcı olmazdı. Amma indi ayaqqabının orqanizmə vurduğu fəsadları, səbəb olduğu xəstəlikləri sadalamaqla bitməz.



Bu təhlükə bu gün bir çox dünya ölkəsində mövcuddur. Bir çox ayaqqabılarda kanserogen maddələr aşkarlanır və bir çox hallarda bu maddənin ayaqlarda dəri xərçəngi yarada biləcəyi təhlükəsi təsdiqlənir. Xərçəngə səbəb istehsalda istifadə edilən və bir çox ölkədə ”Azo” kimi tanınan boyaq maddəsinin ayaqqabıların tərkibindəki çoxluğudur. Məlumat üçün qeyd edək ki, bu maddə dəri xərçəngindən əlavə astma xəstəliyi də yarada bilər.

Ayaqqabıların tərkibindəki ”fitalat” maddəsi isə insan orqanizmində dəhşətli fəsadlar yaradır. Bu maddə həm də şampun və sabun kimi təmizlik məhsullarının 70-80 faizində rast gəlinir. Fitalat insanlarda həddindən çox kökəlməyə- piylənmə xəstəliyinə səbəb olur. O plastik maddələrin yumşaldılması məqsədi ilə işlədilir. Ayaq tərlədikdə, islandıqda bu maddə bədənə keçə bilir. Böyrək, qaraciyər xəstəliklərinə səbəb ola bilir. Bu maddə eyni zamanda qələm, dəftər, pozan, qələmdan, xətkeş, karandaş və məktəb çantalarının hazırlanmasında da istifadə edilir.

Qeyd edək ki, fitalat maddəsi vurulmadan da ayaqqabı hazırlamaq mümkündür, amma o maddəni əvəz edən maddələrin çeşidi çoxdur və birlikdə qatılarsa effekt verər. Bu maddələrin qatıldığı ayaqqabılar fitalatlı ayaqqabının qiymətindən 10 dəfə baha başa gəlir.

Təəssüfedici haldır ki, bizim bazarlarda da istehsalçılar istehlakçını aldatmağın müxtəlif yollarından istifadə edirlər. Ən geniş yayılmış üsul isə ayaqqabılarda çıxıntının qoyulmamasıdır. Əslində keyfiyyətli mallarda belə çıxıntı olur ki, müştəri ondan bir parça qopararaq yandırmaqla əsl dəri olub-olmadığını müəyyən etsin. Təbii dəri yandırılanda gön iyi verməlidir. Yaxud istehsalçılar ayaqqabının dilini təbii dəridən hazırlayır, digər yerlərində isə saxtakarlıq edirlər. Ayaqqabı istehsalında əsasən neft məhsullarından, tullantılardan, süni materiallardan istifadə olunur. Halbuki dəri ayaqqabıların içərisində dabanın şaquli divarlarında açılmış dəri şəkli olmalıdır. Süni dəridən hazırlanan yerlər isə oxlarla göstərilir.





Uşaqlara ayaqqabı seçərkən maksimum diqqətli olmaq, baha da olsa keyfiyyətli məhsul almaq lazımdır, çünki ucuz ayaqqabı sonra başımıza bəla aça bilər. Təsüdüfü deyil ki, bir çox ayaqqabı bədəndə qanın hərəkətinə belə maneə törədir. Bunun səbəbi ”xlor vinilin”dir, onun təhlükəsi barədə çox az adam məlumatlıdır. Onun yaratdığı buxar nəfəs yolları vasitəsilə insanlarda xərçənğə belə səbəb olur, qaraciyəri, beyini, ağciyəri xərçəngə mübtəla edir və ən təhlükəlisi olan qan xərçənginə tutulma ehtimalını yüksəldir. Ayaqqabı alanda mütləq qoxusuna diqqət etmək lazımdır. Keyfiyyətli ayaqqabıdan heç bir qoxu gəlməməlidir. Əgər təzə ayaqqabınız ayağınızı qaşındırır, tərlədirsə deməli o keyfiyyətsiz məhsullardan hazırlanıb.

Krassovka tipli və süni müşənbə (klyonka) materialdan olan ayaqqabıların çoxu ayağı havalandırmır və tərlədir. Bu da dəri problemlərinə səbəb olur. Ən yaxşısı dəri və ya parça ayaqqabılardır. Ayaqqabı uşağın ayağını sıxmamalı, tam kip oturmamalıdır.

Ümumiyyətlə, təkcə ayaqqabı deyil, bir çoxumuz məktəb ləvazimatlarının seçimində o qədər də geniş məlumata malik deyilik. Məktəbli çantaları bu seçimdə ən çox diqqət ayrılmalı məsələlərdəndir. Düzdür, bir çox valideyn övladının israrla tələb etdiyi çantanı alır, onun övladının səhhətinə vurduğu ciddi zərərlərə rəğmən...

Məktəb çantaları uşaqların yük və ağırlıqla tanış olmağının ilk mərhələsi hesab edilir. Düzdür, çantaların ağırlığı isə uşaqların yaşına və siniflərinə görə dəyişir, amma çantaları alarkən düzgün seçim etsək, ağırlığı belə bərabər paylamış ola bilərik və bununla da uşaqları gərəksiz yükdən xilas etmiş olarıq.

Türkiyədə aparılan araşdırmalara görə, bel-onurğa ağrıları ilə həkimə müraciət edən məktəblilərin 70 faizində bu problemin yaranmasına məktəb çantaları səbəb olduğu aşkarlanıb. Mütəxəssislər xəbərdarlıq edir ki, ağır məktəb çantaları uşaqlarda ağır bel-onurğa problemlərinə, ”skolyoz” adlandırılan xəstəliyə səbəb olur.

Pediatr Ümidə Zeynalova deyir ki, skolyoz xəstəliyi insan onurğasının ”C” şəklini alması deməkdir. Bu xəstəliyin başlanğıcı isə məhz kiçik yaşda onurğanın zədə almasıdır. Müsahibimiz bildirir ki, çantalar kürəkdə və çiyinlərdə ağrıya səbəb olmayacaq ağırlıqda olmalıdır, eyni zamanda məktəb çantaları ağırlığı bütün bel nahiyəsinə bərabər paylamalıdır. Yeri gəlmişkən, məlumat üçün qeyd edək ki, Amerikada ildə 20 minə yaxın uşaq məktəb çantalarının verdiyi zərərlər ucbatından həkimə müraciət edir. Həkimlər uşaqların bel ağrılarından, onurğa əyriliklərindən şikayət etməsinə səbəbin məhz məktəb çantalarının olmasını bildirirlər.

Ona görə də məktəb çantalarının seçimində bir neçə vacib məsələyə fikir verməliyik. Əvvəla, mütəxəssislər məsləhət görür ki, məktəbli çantasının geniş və dəstəkli çiyin asqıları, bel kəmərinin olması vacibdir. Çantanın ağırlığı omba və ya bel kəməri bölgəsinə düşməlidir ki, onurğaya zərər verməsin. Valideynlər təkərli çantalar da ala bilərlər, bu ilk siniflər üçün daha rahatdır. Amma israrla kürəkdən asılma çanta istəyən uşaqlara çantanı elə seçmək lazımdır ki, ağırlıq çanta içərisində uyğun paylansın, çiyin asqıları rahat olsun, hər iki çiyindən asmaq üçün iki asqılı çanta olsun. Eyni zamanda görünüşcə daha portativ, amma içi geniş çanta daha məqsədəuyğundur.

Pediatrlar məsləhət görür ki, elə çanta seçilməlidir ki, içərisi dolu olduğu halda 8 yaşınadək olan uşaqlar üçün bu ağırlıq 2 kilo, 8-12 yaşındakı uşaqlar ən çox 4 kilo, 12-15 yaş arası uşaqlar isə 5 kilo təşkil etməlidir.

Bir vacib məsələni də qeyd etmək lazımdır ki, uşaqların psixologiyasını korlayan şəkillər əks olunmuş kimyəvi qatqılı çantalar yerinə sadə, birrəng parçadan tikilmiş çantalara üstünlük vermək daha düzgündür.

Bizim borcumuz uşaqlarımızı məktəbə sağlam yola salmaqdır. Qalanı müəllimlərin boynuna.

***Lalə Mehralı***

ARAŞDIRMA

SON SƏHİFƏ

# SƏS

16 sentyabr
2022-ci il

## BİLİRSİNİZMİ?

Yer səthinin 70%-ni su təşkil etsə də, onun yalnız 1%-i içmək üçün yararlıdır.

***

Dünya əhalisinin yarısı düyü ilə qidalanır.

***

Boks idman növü kimi 1900-cü ildə qanuniləşdirilmişdir.

***

Bu günə qədər qeydə alınmış ən böyük aysberq 200 mil uzunluqda və 60 mil enindədir. O, Belçikadan daha böyük sahəyə malik olub.

***

Ən böyük dalğa Yaponiyanın İshagaki adasında 1971-ci ildə 85 metr hündürlüyündə qeydə alınıb.

***

Cənubi Koreyanın paytaxtı Seul koreya dilində "paytaxt" deməkdir.

***

Sadəcə dişi ağcaqanadlar dişləyirlər.

# Messidən bir qolla iki rekord!



PSJ-nin hücumçusu Lionel Messi futbol üzrə UEFA Çempionlar Liqasının qrup mərhələsinin 2-ci turunda Hayfanın "Makkabi" komandası ilə görüşdə qol vuraraq, eyni vaxtda iki rekorda imza atıb.

SİA-nın xarici qaynaqlardan əldə etdiyi məlumata görə, argentinalı futbolçu Çempionlar Liqasında 18 mövsümdə "Real Madrid"in hücumçusu Kərim Benzemaya qalib gələrək tarixdə qol vuran ilk futbolçu olub. Xatırladaq ki, Kərim Benzemada bu göstərici 17-dir.

Qeyd edək ki, "Mançester Yunayted"in hücumçusu Kriştiano Ronaldo iştirakçısı olduğu Çempionlar Liqasının 16 mövsümündə qol vurub. Messi həm də turnir tarixində 39 fərqli kluba qol vuran ilk oyunçu oldu. Ronaldoda isə bu göstərici 38-dir.

Yeri gəlmişkən xatırladaq ki, Çempionlar Liqasında vurulan ümumi qolların sayına görə Messi tarixdə ikinci yerdədir. Argentinalı 158 matçda 126 qol vurub. Bu göstəriciyə görə Ronaldo 183 oyunda 140 qolla liderlik edir. Üçüncü yerdə "Barselona"nın polşalı hücumçusu Robert Levandovski (108 oyun və 89 qol), dördüncü yerdə Benzema (143 oyun və 86 qol) qərarlaşıb.

*Ağasəf Babayev*



# Uşaqlarda yaranan əsəb problemlərinin səbəbi nədir?

**"Uşaqlarda əsəb problemlərinin səbəbləri müxtəlif ola bilər. Bu genetik və sonradan qazanılan ola bilər". Bu fikirləri SİA-ya açıqlamasında psixoloq Tahiba Quliyeva bildirib.**

Onun sözlərinə görə, sonradan uşaqda yaranan əsəb pozuntusunun səbəblərindən biri ailə konfliktlərinin uşağın yanında və ya eşidəcəyi formada baş verməsidir: "Bu halda uşaqda aqressiya, əsəbilik halları, davranış problemləri qaçınılmazdır. Digər bir səbəb uşağa qarşı ailənin düzgün yanaşmaması, onunla qışqıraraq, aqressiv münasibəti, fiziki və psixoloji şiddətə məruz qalması, texnologiyadan qaynaqlanan əsəbilik hallarının olmasıdır.

Bunun üçün valideynlər uşaqla davranışlarında daha diqqətli olmalı, ailədə konfliktlər varsa uşağın yanında bunu əks etdirməməli, televizor, komputer, telefon və planşetlərdə baxdığı filmlərə, oyunlara, cizgi filmlərinə nəzarət etməlidirlər.

Bəzən şahidi oluruq uşaqla valideyn markete girende uşaq istədiyi hər şeyi almaq istəyir, lakin valideyn bunun mümkün olmadığını dedikdə, uşaq özünü atır yerə, ağlayır, qışqırır. Valideyn düşünür ki, uşaq əsəbidir və onun istədiyi hər şeyi etsin və uşaq əsəbləşməsin.Bu uşaqda əsəbilik deyil, davranış problemidir. Bu tip uşaqlar istədiyi hər şeyi isterik davranış göstərərək əldə etməyə çalışırlar. Lakin valideynlər bu davranışa düzgün yanaşma göstərsələr, bu hal uşaqda düzələcək.

*Abutel İlhamqızı*

# 19 yaşlı tələbə zahiri görünüşünə görə intihar edib

**Gəncədə 19 yaşlı tələbə intihar edib. "Qafqazinfo"nun məlumatına görə, Azərbaycan Tibb Universitetinin 3-cü kurs tələbəsi, 2003-cü il təvəllüdlü Həsən Əhmədov (şərti) yaşadığı evdə özünü asaraq həyatına son qoyub.**



İlkin ehtimala görə, o, zahiri görünüşünü bəyənmədiyi üçün bu addımı atıb. Belə ki, H.Əhmədov qulaqlarının böyük olduğunu düşünərək daha əvvəl əməliyyat olunaraq onları kiçiltdirib. Lakin nəticə onu qane etməyib. Bundan sonra tələbə ikinci dəfə əməliyyat olunmaq qərarına gəlib. Ancaq həkimlər əməliyyatın onun həyatı üçün riskli olacağını bildiriblər. Bundan sonra H.Əhmədov həyatına qəsd edib. Faktla bağlı araşdırma aparılır.

# Omeqa 3-ün dəri üçün faydaları



**Omeqa-3 adlanan yağ turşularının orqanizm üçün inanılmaz faydaları var. Əslində bu yağların orqanizmdə olmaması insanlarda bir çox şikayətlərə səbəb ola bilər. Son zamanlar geniş istifadə olunan omeqa-3 balıq yağının orqanizmimizin istehsal edə biləcəyi bir yağ olmadığı üçün mütləq əlavə olaraq qəbul etmək lazımdır. Çoxsaylı vitamin və mineralları ehtiva edən omeqa- 3 dəri üçün çox faydalıdır.**

Tibbi saytlarında yer alan məlumatda deyilir ki, dərinin cavanlaşmasını və hamar görünüşünü dəstəkləyən omega-3 hər yaş kateqoriyaları üçün də uyğundur. Omeqa-3-ün dəri üçün faydaları arasında ən vacibləri aşağıdakılardır: dərini yumşaldır, parlaq görünməsini təmin edir; dəriyə canlılıq verir, cavanlaşmasına kömək edir; qaşıntıları aradan qaldırır, ləkələri azaldır; tıxanmış məsamələri açır; yaşla əlaqədar üzdə yaranan qırışları və çizgiləri yox edir; sızanaqlara eyni zamanda dərinin səthində infeksiya və iltihaba qarşı qalxan rolunu oynayır; günəşin mənfi təsirlərinə qarşı dərini gücləndirdiyi üçün günəşdən gələn zərərləri minimuma endirir; dəri xərçənginə qarşı qoruyucu təsir göstərir; dərinin qurumasının və soyulmasının qarşısını alır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3600